

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 31 (822) ■ 10 avqust 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli Zirvə görüşü

Avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirilib.



Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək Bakıda tarixdə ilk dəfə olaraq İran, Rusiya, Azərbaycan prezidentlərinin üçtərəfli görüşünün keçirildiyini və üç ölkə arasında yeni əməkdaşlıq formatı yarandığını diqqətə çatdırıb: «Əminəm ki, bugünkü zirvə görüşü regional əməkdaşlığa yeni təkan verəcəkdir. Əsrlər boyu yanaşı yaşayan xalqlarımızı ortaq tarix və coğrafiya birləşdirir. Azərbaycanı həm İran, həm Rusiya ilə sıx dostluq əlaqələri bağlayır. Bu əlaqələr son illərdə daha da inkişaf etmiş və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. İran, Rusiya və Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Ölkələrimiz həmişə BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyirlər. Azərbaycan İran ilə İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində, Rusiya ilə ATƏT, MDB, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edir. Sadaladığım təşkilatlarda üç ölkə daim bir-birini dəstəkləyir. Azərbaycan İrana və Rusiyaya tətbiq olunan beynəlxalq sanksiyaların əleyhinə olmuşdur və öz mövqeyini dəfələrlə açıq şəkildə bildirmişdir. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət beynəlxalq hüquq normalarına, ədalətə və ölkəmizin milli maraqlarına əsaslanır. Qonşularımızla yaxın əlaqələr milli maraqlarımıza tam cavab verir. İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Hər iki ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll olunmasını dəfələrlə bəyan etmişdir».

Azərbaycan Prezidenti bildirib ki, bizi birləşdirən Xəzər dənizi bizim ümumi sərvətimizdir. Xəzər dənizi sülh və əməkdaşlıq dənizidir və belə də qalmalıdır. Xəzər dənizinin ekosisteminin qorunması bütün Xəzəryanı ölkələrin ümumi işidir. Prezident İlham Əliyev qeyd edib ki, hər üç ölkə regionda enerji, nəqliyyat, infrastruktur layihələrini birgə həyata keçirməklə yeni əməkdaşlıq formatı yaratmış olacaq. «Şimal-Cənub» nəqliyyat dəhlizinin yaradılması isə transmilli layihə kimi bir çox ölkələr üçün çox əhəmiyyətli olacaq.

İran Prezidenti Həsən Ruhani bildirib ki, İran, Azərbaycan və Rusiya arasında olan üçtərəfli görüş fikir mübadiləsinə, ortaq mənafelərin yaranmasına imkan verir: «İran hesab edir ki, üç ölkənin eyni mövqeyə, qarşılıqlı etimada sahib olması müxtəlif sektorlarda, xüsusilə mədəni, iqtisadi sahələrdə potensialı üzə çıxarmağa imkan yaradacaq. Bu ölkələrin bir-birinə yardım etmələri regionda mövcud olan təhdidlərə qarşı mübarizə sahəsində əməkdaşlığa da töhfə verə bilər. Regionda üç ölkənin əməkdaşlığı sayəsində inkişafın mümkünlüyünə inanırıq».



Rusiya Prezidenti Vladimir Putin üçtərəfli görüşün təşkil edilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə təşəkkür edib. V.Putin Azərbaycan və İranı Rusiya üçün mehriban qonşular və mühüm tərəfdaşlar adlandırıb: «Biz bir-birimizlə səmərəli əməkdaşlıq üzrə zəngin təcrübə toplamışıq. Sözsüz ki, bu gün biz münasibətlərimizdə yeni səhifə açırıq, üçtərəfli formatda qarşılıqlı fəaliyyətə start veririk. Bizim fikrimizcə, bu cür formata ehtiyac olması aşkardır. Üç ölkəni birləşdirən əsas amil geniş əhatəli regional və qlobal məsələlərə yanaşmanı əlaqələndirməyə hazır olmağımız, ticari-iqtisadi sahədə çoxplanlı praktiki əməkdaşlığı bundan sonra da genişləndirmək istəyimizdir». Rusiyanın dövlət başçısı qeyd edib ki, bu gün də davam edən qlobal siyasi və iqtisadi böhran regionda gərginliyi artırır. Bütün bunlar bizim üçün real təhlükədir. Bu problemlərin həlli yollarını birgə axtarmaq istəyi ölkələrimizin daha sıx qarşılıqlı əlaqəsini tənzimləmək zərurətini şərtləndirir.

Vladimir Putin Xəzər problemlərinə dair üçtərəfli dialoqun Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya üzərində işin tezliklə tamamlanmasına şərait yaradacağına və konvensiyanın imzalanmasının Xəzəryanı beş ölkənin hamısının mənafelərinə uyğun olacağına əminliyini ifadə edib. Nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığın perspektivini ümidverici hesab edən Rusiyanın dövlət başçısı «Şimal-Cənub» beynəlxalq nəqliyyat dəhlizinin əhəmiyyətinə toxunub, Xəzər regionunda neft-qaz yataqlarının kəşfiyyatı və işlənməsi layihələrinin reallaşdırılmasını prioritet hesab etdiyini vurğulayıb.

Azərbaycan Prezidenti Zirvə görüşündə yekun nitqi ilə çıxış edərək tədbirin çox faydalı keçdiyini və irəli sürülən təkliflərin böyük məna daşıdığını diqqətə çatdırıb. Qeyd edilib ki, yaratdığımız üçtərəfli format ikitərəfli əlaqələrin əsasında yaranır və Azərbaycan, Rusiya və İran arasında olan yüksək əlaqələr və üçtərəfli əməkdaşlıq regional təhlükəsizlik üçün əsas şərtdir: «Rusiya-İran-Azərbaycan üçtərəfli əməkdaşlığı bölgədə sabitləşdirici amildir. Hesab edirəm ki, biz birgə səylərlə həm ölkələrimizi mümkün olan risklərdən qoruyacağıq, eyni zamanda, geniş mənada regionda əməkdaşlığı dərinləşdirəcəyik».

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Həsən Ruhani və Rusiya Prezidenti Vladimir Putin Zirvə görüşünün Birgə Bəyannaməsini imzalayıblar.

# İran Prezidenti Həsən Ruhaninin Azərbaycana səfəri

Avqustun 7-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin rəsmi qarşılanma mərasimi olub. Rəsmi qarşılanma mərasimindən sonra Prezident İlham Əliyev və Həsən Ruhaninin təkbətək görüşü keçirilib. Görüşdə çıxış edən dövlətimizin başçısı ölkələr arasında əlaqələrin sürətlə inkişaf etdiyini bildirib. İran Prezidenti Həsən Ruhani isə münasibətlərin genişləndirilməsi üçün bu səfərdə yeni addımların atılacağına əmin olduğunu diqqətə çatdırıb.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcminin daha da artırılması, hökumətlərarası komissiyanın uğurlu fəaliyyəti, əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsi, qarşılıqlı investisiya qoyuluşu və turizmin inkişaf etdirilməsi, hava nəqliyyatı, dəmir yolu, səhiyyə, əczaçılıq, bank sahələrində, o cümlədən Xəzər dənizində əməkdaşlıq, «Şimal-Cənub» layihəsinin önəmi, terrorizmlə mübarizə, regional sülhün və sabitliyin təmin edilməsi məsələləri müzakirə olunub. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi olub. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata birgə bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev imzalanmış sənədlərin İran-Azərbaycan əlaqələrinin gələcək inkişafını təmin edəcəyinə əminliyini ifadə edib. Dövlətimizin başçısı bildirib ki, 25 ilə yaxındır ki, İran-Azərbaycan dövlətlərarası əlaqələr uğurla inkişaf edir. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir. İran tərəfi həmişə Azərbaycanın ərazi bütövlüyünə böyük hörmətlə yanaşmış, yanaşır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Bu dəstək həm BMT, həm də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində özünü büruzə verir.

Ölkələr arasında iqtisadi əlaqələrin vəziyyətinə toxunan Prezident İlham Əliyev bu il ticarət dövriyyəsinin 66 faiz artdığını, bu rəqəmin çox gözəl göstərici olduğunu xatırladıb. Səfər ərəfəsində Neftçala şəhərində «İran Khodro» şirkətinin istehsal edəcəyi avtomobil zavodunun təməl daşının qoyulmasını müsbət addım kimi qiymətləndirən dövlətimizin başçısı yaxın zamanlarda Azərbaycanda İran texnologiyası ilə çalışacaq dərman preparatları zavodunun tikintisinin də nəzərdə tutulduğunu qeyd edib.

İran Prezidenti Həsən Ruhani bəyanatla çıxış edərək bildirib ki, hər iki ölkə azad ticarətin bərqərar olması istiqamətində birgə addımlar atır, bank sahəsində əməkdaşlıq böyük əhəmiyyətə malikdir. Texnologiya və sənaye sahəsində investisiya yatırılması nəzərdə tutulur. Əczaçılıq sahəsində əməkdaşlıqla bağlı atılacaq addımlar iki ölkə arasında münasibətlərin inkişafına xidmət edəcək. Hazırda tərəflər «Şimal-Cənub» dəhlizinin yaradılması istiqamətində səyləri artırıblar. Həm iki ölkə, həm də region ölkələri üçün əhəmiyyət kəsb edən bu dəhliz Azərbaycanın İran körfəzinə çıxışını təmin edəcək və böyük iqtisadi dividentlər verəcək.

Dağlıq Qarabağ münaqişəsinə toxunan İran Prezidenti Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini və sərhədlərin güc yolu ilə dəyişdirilməsinin əleyhinə olduqlarını bəyan edib.

## BU NÖMRƏMİZDƏ

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 2

Vergilər Nazirliyində kollegiya iclası keçirilib 2

Vətəndaş cəmiyyəti qurumlarının nümayəndələri və müstəqil ekspertlərlə görüş 3

Vergi məbləğini hesablamaq asanlaşdırılıb 5

# Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfəri

Avqustun 8-də Azərbaycana rəsmi səfərə gəlmiş Rusiyanın dövlət başçısı Vladimir Putini Bakıda Heydər Əliyev beynəlxalq hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşılayıblar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub. Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Rusiya dövlət başçısı son üç ildə Azərbaycana üçüncü səfər edir və bu, ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsini göstəricisidir. Baş tutan görüşlər münasibətlərin inkişafına yeni təkan verir: «Biz beynəlxalq məkanlarda fəal qarşılıqlı əlaqə saxlayırıq, siyasi dialoq fəallaşır, iqtisadi əlaqələr möhkəmlənir, nəqliyyat və energetika sahələrində də yaxşı nəticələr var, humanitar əməkdaşlıq inkişaf edir». Azərbaycan Prezidenti sentyabr ayında Bakıda Rusiya və Azərbaycanın dövlət başçılarının himayəsi altında növbəti Beynəlxalq Humanitar Forumun keçiriləcəyini diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Rusiyanın rolunu xüsusi vurğulayan Prezident İlham Əliyev bunun tənzimləmə prosesinin irəliləməsində çox böyük əhəmiyyət kəsb etdiyini bildirib. Rusiya Prezidenti Vladimir Putin bildirib ki, ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Münasibətlər xeyli şaxələndirilib, onlar bütün istiqamətlər üzrə inkişaf edir. Bu gün Azərbaycanda Rusiyanın təxminən 600 şirkəti işləyir. Birbaşa investisiyaların həcmi 1,5 milyard dollara yaxındır.

Qarabağ probleminə toxunan V.Putin münaqişənin həllinin kompromis yolu ilə tapılmalı olduğunu deyib.

# «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Vergi orqanlarının yaranmasından ötən dövr ərzində aparılmış genişmiqyaslı islahatlar, reallaşdırılmış kompleks tədbirlər və konkret hədəflərə yönəlmiş proqramlar nəticəsində ölkəmizdə müasir beynəlxalq standartlara cavab verən vergi xidmətinin formalaşdırılmasına nail olunmuşdur. Azərbaycan Respublikasında çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsi üçün vahid qanunvericilik bazası yaradılmış və qabaqcıl ölkələrin vergi qanunvericiliyi ilə uzlaşdırılmışdır. Azərbaycanın vergi sistemi dünyanın qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətlərini vergi ödəyicilərinə təqdim edir. Hazırda Vergilər Nazirliyi vergi ödəyicilərinə 62 növ elektron xidmət göstərir.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi zəruridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

1. «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Vergilər Nazirliyi üç ay müddətində:

2.1. «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri» nəzərə alınmaqla vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. vergi orqanları tərəfindən keçirilən vergi yoxlamalarının, xüsusilə kameral vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması üzrə inzibatçılığı təkmilləşdirsin;

2.3. vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığını təkmilləşdirsin, habelə aparılan yoxlamalarda vergi ödəyicilərinin iştirakını təmin etsin;

2.4. nümunəvi vergi ödəyicisi üçün meyarları müəyyən etsin, həmin vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığını sadələşdirsin və ünvanlı xidmətlərin əhatə dairəsini genişləndirsin;

2.5. vergi qanunvericiliyinə əməl edən nümunəvi vergi ödəyiciləri və vergi qanunvericiliyində mütəmadi olaraq nöqsanlara yol verən intizamsız vergi ödəyiciləri ilə bağlı məlumatları Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirərək ictimaiyyətə açıqlasın;

2.6. vergi ödəyiciləri ilə vergi orqanları arasında birbaşa təması minimuma endirilməsi məqsədilə elektron auditin tətbiq dairəsini genişləndirsin və bu sahədə keçirilən vergi yoxlamalarının keyfiyyətini artırsın;

2.7. müasir standartlara uyğun olaraq vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Çağrı Mərkəzində beynəlxalq təcrübədə tətbiq olunan «Outbound Call Centre» (geriyə - müştəriyə zəng xidməti) funksiyalarının tətbiqini təmin etsin;

2.8. real vergi potensialının düzgün müəyyən olunması, vergi nəzarətinin keyfiyyətinin artırılması və nəzarət tədbirlərində şəffaflığın təmin edilməsi məqsədilə informasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunmaqla risklərin avtomatik emal edilməsinə, təsnifləşdirilməsinə, təhlilinə və vergi ödəyicilərinin risk meyarları üzrə qruplaşdırılmasına imkan verən risk qiymətləndirmə sistemini yaratsın;

2.9. borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və onların aid olduğu risk qrupundan asılı olaraq, borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsini və inzibatçılığın təkmilləşdirilməsini təmin etsin;

2.10. vergi orqanları ilə vergi ödəyicilərinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili məqsədilə vergi bəyannamələrinin formalarını təkmilləşdirsin;

2.11. vergi ödəyicilərinin vaxtına və resurslarına qənaət edilməsi məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Çağrı Mərkəzi vasitəsilə fiziki şəxslərin qeydiyyatı, şəhadətnamə dublikatının alınması, ASAN imzanın dəyişdirilməsi, fəaliyyətin dayandırılması və ya bərpası kimi xidmətlər göstərilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

4.1. üç ay müddətində Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə birlikdə Vergilər Nazirliyinin fəaliyyətində səmərəliliyin artırılması və dövlət büdcəsindən yayındırılmış vergi borclarının alınması ilə bağlı icra olunmayan məhkəmə qərarlarının icrası məqsədilə qanunvericiliyin bu sahədə tələbini pozan şəxslər barəsində tədbirlərin daha operativ şəkildə həyata keçirilməsini, bununla bağlı icraat prosesinin sadələşdirilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsini və icra olunmamış məhkəmə qərarlarının sayının azaldılması üçün daha çevik mexanizmlərin müəyyən edilməsini təmin etsin;

4.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2016-cı il.*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli Sərəncamı ilə TƏSDİQ EDİLMİŞDİR

## 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri

2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri aşağıdakılardır:

1. qanunvericiliyin tələblərinə əməl edilməklə, vergi ödəyicilərinin optimal gəlirliliyini təmin etmək və investisiya mühitini daha da yaxşılaşdırmaq məqsədilə vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi;

2. kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin əlavə dəyər vergisi üzrə vergitutma obyekti malların satış qiyməti ilə malgöndərənlərə ödənilən qiymət arasındakı fərq (ticarət əlavəsi) hesab edilərək, verginin həmin məbləğdən hesablanması ilə bağlı qanunvericiliyə dəyişikliklərin edilməsi;

3. topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən edilməsi;

4. Azərbaycanı turistlər üçün cəlbedici ölkəyə çevirmək və bütövlükdə turizm sektorunu inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikası ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması («Tax free») sisteminin hava limanından başqa digər sərhəd buraxılış məntəqələrində də tətbiq olunması;

5. beynəlxalq təcrübə nəzərə alınmaqla, diferensiallaşdırılmış əlavə dəyər vergisi dərəcələri tətbiq edilməli olan malların (işlərin, xidmətlərin) siyahısı və həmin mallar (işlər, xidmətlər) üzrə əlavə dəyər vergisinin dərəcələrinin müəyyən edilməsi;

6. vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlıq münasibətlərini daha təkmil müstəviyə gətirmək, vergi öhdəliklərini daha dəqiq müəyyən etmək və proqnozlaşdırmaq üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması» («Advance tax ruling») qaydasının müəyyən edilməsi;

7. kameral vergi yoxlamaları zamanı aydın, şəffaf və ədalətli hesablama metodologiyasının tətbiqi və kameral vergi yoxlamalarının həyata keçirilməsinin vergi bəyannamələrinin təqdim edildiyi gündən sonrakı 30 gün müddəti ilə məhdudlaşdırılması (müəyyən edilməlidir ki, kameral vergi yoxlamaları vergi bəyannamələri təqdim edildikdən sonra növbəti 30 gün müddətində həyata keçirilməlidir və bu müddət başa çatdıqda həmin bəyannamələr üzrə kameral vergi yoxlamaları həyata keçirilə bilməz);

8. vergidən yayınma hallarının qarşısını almaq məqsədilə beynəlxalq təcrübədə geniş tətbiq olunan ictimai məlumatlandırma («Whistleblow») mexanizminin hazırlanması;

9. vergi ödəyicilərinin vergi risklərini minimuma endirmək və vergidən yayınma hallarının qarşısını almaq məqsədilə beynəlxalq təcrübədə geniş tətbiq olunan «Könüllü vergi açıqlaması» («Voluntary tax disclosure») sisteminin tətbiqi və təşviqi mexanizminin hazırlanması;

10. ölkə iqtisadiyyatında şəffaflığı artırmaq, maliyyə intizamını gücləndirmək və vergitutma bazasını genişləndirmək məqsədilə nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması;

11. beynəlxalq təcrübə nəzərə alınmaqla, vergi ödəyiciləri tərəfindən xərclərin süni şəkildə artırılması (transfer qiymətləndirmə) hallarını aradan qaldırmaq məqsədilə qanunvericilik bazasının yaradılması;

12. beynəlxalq təcrübə nəzərə alınmaqla, nağd pul hesablaşmaları nəzarət-kassa aparatları tətbiq edilmədən həyata keçirilən fəaliyyət sahələrinin dairəsinin dəqiq müəyyənləşdirilməsi və nəzarət-kassa aparatları tətbiq etmədən fəaliyyət göstərən fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi formasında müəyyən edilməsi;

13. vergi ödəyicilərinin fəaliyyətini səmərəli təşkil etmək və inzibati xərclərini azaltmaq məqsədilə dövlət orqanlarına verilən hesabatların sadələşdirilməklə elektron qaydada vahid mərkəzdən paylanması üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «Vahid hesabat standartı» (Common Reporting Standard) sisteminin tətbiq olunması mexanizminin hazırlanması;

14. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı qaydalarının sadələşdirilməsi;

15. şəffaflığı artırmaq və vergitutma bazasını genişləndirmək üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «rəqəmsal iqtisadiyyatın» (digital economy) vergiyə cəlb edilməsi;

16. vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda elektron qaimə-faktura sisteminin tətbiqi;

17. kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq edilən vergi güzəştlərinin əhatə dairəsini dəqiq müəyyənləşdirmək məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə sərhədlərin müəyyən edilməsi;

18. ölkənin hüdudlarından kənarda əldə olunmuş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün digər dövlətlər arasında maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması;

19. vergi ödəyicisinin vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə vergi qanunvericiliyində hüquqlardan sui-istifadə əleyhinə müddəaların («Anti-avoidance rules») beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

20. Azərbaycan Respublikası rezidentlərinin vergi güzəşti olan xarici ölkələrdə və ya onların vergi güzəşti tətbiq olunan ərazilərində (ofşorlarda) fəaliyyət göstərən vergi ödəyiciləri ilə əməliyyatlarına səmərəli vergi nəzarəti mexanizminin qurulması;

21. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Qlobal Forumu çərçivəsində vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinq əldə etmək və bu reytinqi daima saxlamaq məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi.

# Vergilər Nazirliyində kollegiya iclası keçirilib

Avqustun 5-də Vergilər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli 2257 nömrəli Sərəncamında verilmiş tapşırıqların icrası ilə bağlı Vergilər Nazirliyinin qarşısında duran vəzifələrə həsr edilmiş kollegiya iclası keçirilib.

İclasda çıxış edən Azərbaycan Respublikasının vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında son 10 il ərzində vergi orqanları tərəfindən sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, investisiya qoyuluşlarının stimullaşdırılması, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan çevik və şəffaf mexanizmlər əsasında qurulması məqsədilə e-bəyannamə və e-VHF sisteminin tətbiqi, sahibkarlıq fəaliyyəti subyektlərinin «bir pəncərə» prinsipi üzrə qeydiyyatı, sahibkarların elektron qeydiyyatı, elektron xidmətlərin sayının artırılması, e-auditin tətbiqi istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib, ümumilikdə istər vergi qanunvericiliyinin, istərsə də vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə mühüm addımlar atılıb.

Ötən dövr ərzində görülən işlər nəticəsində 2015-ci il ərzində dövlət büdcəsinə vergi daxilolmalarının ümumi məbləği 7118,2 milyon manat, o cümlədən neft sektorundan daxilolma 2089,9 milyon manat (29,4%), qeyri-neft sektorundan daxilolma 5028,3 milyon manat (70,6%) təşkil edib. 2016-cı ilin ilk yarımilliyi ərzində bu göstəricilər müvafiq olaraq 3190,1 milyon manat, o cümlədən qeyri-neft sektoru üzrə 2495,4 milyon manat (78,2%) təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektorundan daxilolmaların 9,7% artdığını göstərir.

F.Məmmədov qeyd edib ki, Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı ilin birinci yarısında dərin iqtisadi islahatlar aparıldığını, ixracın stimullaşdırılması, investisiya cəlb edilməsi üçün böyük güzəştlər tətbiq olunduğunu bildirib. Cənab Prezident nitqində ölkə iqtisadiyyatındakı real vəziyyəti təhlil edərək, vergi sahəsində də ciddi islahatlar aparıldığını, bunu insanların, iş adamlarının gördüyünü, vergi orqanları tərəfindən proqnozdan 2 faiz artıq vergi yığılmasının təmin edildiyini, bununla yanaşı büdcəyə daha çox vəsait toplanması üçün böyük ehtiyatların olduğunu qeyd edib və bu ehtiyatların aşkarlanması, aparılan vergi islahatları nəticəsində ilin sonuna qədər bu sahədəki vəziyyətin tam şəffaflaşdırılması ilə bağlı konkret tapşırıqlar verib.

Vergilər naziri Azərbaycan Respublikasının Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli, 2257 nömrəli Sərəncamına toxunaraq bildirib ki, həmin sərəncamla 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların əsas istiqamətləri təsdiq edilib. Bu sərəncam cari ildə vergi inzibatçılığı sahəsində əhəmiyyətli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu tədbirlərə və vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının təkmilləşdirilməsi, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, risk qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi istiqamətində vergi islahatlarının davam etdirilməsi və s. aiddir.

Vergilər naziri Fazil Məmmədov ölkə başçısının vergi islahatlarının həyata keçirilməsi istiqamətində verdiyi tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsi, o cümlədən sərəncamda müəyyən edilmiş islahatların həyata keçirilməsi üçün vergi orqanlarının fəaliyyət istiqamətlərinə uyğun tədbirlər planının təsdiq edilməsinə zərurət yarandığını vurğulayıb.

Kollegiya iclasında vergilər nazirinin müavinləri, o cümlədən struktur vahidlərinin rəhbərləri görülən işlər barədə məruzələrlə çıxış edib, sərəncamdan irəli gələn məsələlərlə bağlı görülməli işlər ətrafında müzakirələr aparılıb, cari ilin sonuna kimi real vergi potensialının dəqiqləşdirilməsi və bu sahədə şəffaflığın təmin edilməsi, vergi bazasının genişləndirilməsi, habelə uçot və risklərin idarə edilməsi sahələrində nəzarətin gücləndirilməsi və vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi sahəsində görülən işlərin keyfiyyətinin yüksəldilməsi sahəsində mövcud vəziyyət ətraflı müzakirə edilib.

Aparılan müzakirələrin nəticəsi olaraq, Vergilər Nazirliyinin Kollegiyası tərəfindən Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli Sərəncamında verilən tapşırıqların icrası ilə bağlı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə Tədbirlər Planı» qəbul edilib.

Kollegiya iclasında yekun nitqi ilə çıxış edən vergilər naziri Fazil Məmmədov Tədbirlər Planından irəli gələn məsələlərin icrası, habelə vergi orqanlarının qarşısında qoyulmuş vəzifələrin icrasının təmin olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

# Vətəndaş cəmiyyəti qurumlarının nümayəndələri və müstəqil ekspertlərlə görüş





Vergilər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli Sərəncamında verilmiş tapşırıqların icrası ilə bağlı nazirliyin qarşısında duran vəzifələrin müzakirəsinə həsr olunmuş görüş keçirilib. Görüşdə vergilər nazirinin 1-ci müavini Sahir Məmmədxanov, vergilər nazirinin müavini İlkin Vəliyev, vergilər nazirinin müşaviri Ələkbər Məmmədov, nazirliyin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Mahir Rəfiyev, vətəndaş cəmiyyəti qurumlarının nümayəndələri, eləcə də müstəqil ekspertlər Fikrət Yusifov, Vüqar Bayramov, Samir Əliyev, Qalib Bayramov və Sevgim Rəhimov iştirak ediblər.

Görüşdə çıxış edən vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov vergi sistemində aparılan islahatlar və həyata keçirilən yeniliklər barədə ətraflı məlumat verərək qeyd edib ki, yaranmış yeni iqtisadi şəraitə uyğun olaraq biznes mühitinin yaxşılaşdırılması və vergi ödəyicilərinin fəaliyyətinin genişləndirilməsi üçün həm qanunvericilik səviyyəsində, həm də Vergilər Nazirliyinin öz səlahiyyətləri çərçivəsində müvafiq addımlar atılıb.

Sahir Məmmədxanov bildirib ki, dövlət başçısının imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Sərəncamla 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların əsas istiqamətləri təsdiq edilib. Sənəd cari ildə vergi inzibatçılığı sahəsində əhəmiyyətli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu tədbirlərə vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, risk qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi istiqamətində vergi islahatlarının davam etdirilməsi və s. aiddir.

İslahatlar real vergi potensialının dəqiqləşdirilməsi və şəffaflığın təmin edilməsi, vergi bazasının genişləndirilməsi, vergi öhdəliklərinə əməl olunması, habelə uçot və risklərin idarə edilməsi sahələrində nəzarətin gücləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi, vergi ödəyicilərinin məlumatlandırılması sahəsində görülən işlərin keyfiyyətinin yüksəldilməsi kimi məqsədlərə xidmət edir.

Görüşün məqsədinin yeni vergi islahatları barədə vətəndaş cəmiyyətinin nümayəndələrini ətraflı məlumatlandırmaq, onların fikir və rəylərini öyrənmək olduğunu bildirən S.Məmmədxanov islahatların uğurla həyata keçirilməsində ictimai nəzarətin rolunun əhəmiyyətini vurğulayıb.

Tədbirdə iştirak edən ekspertlər görüşün keçirilməsinin vətəndaş cəmiyyəti üçün əhəmiyyətli xarakter daşıdığını, sərəncamın vergi islahatlarının təkmilləşdirilməsi sahəsində yeni mərhələnin əsasını qoyduğunu qeyd ediblər.

Ekspertlər sərəncamın icrası ilə bağlı təkliflərini səsləndirərək yeni vergi islahatlarında müasir texnologiyaların tətbiqinin daha da genişləndirilməsi, bir sıra istiqamətlərdə, o cümlədən nağdsız hesablaşmalar sahəsində stimullaşdırıcı tədbirlərin vacibliyini vurğulayıblar. Bildirilib ki, Prezidentin sərəncamı vergi sisteminin beynəlxalq təcrübəyə tam uyğunlaşması, vergi yükünün ciddi şəkildə azalması, vergi nəzarətinin sadələşdirilməsi, pərakəndə ticarətdə növü üzrə çalışanların gəlirlərinin stimullaşdırılması, ölkədə nağdsız hesablaşmaların genişlənməsi kimi mütərəqqi addımlara yol açacaq.

Görüş müzakirələrlə davam etdirilib, həyata keçiriləcək islahatlara dair ətraflı fikir mübadiləsi aparılıb.

# Məqsəd elektron vergi xidmətlərinin göstərilməsində dünyanın aparıcı ölkələri sırasına daxil olmaqdır



## Vergilər Nazirliyinin İnformasiya texnologiyaları şöbəsinin rəisi, baş vergi xidməti müşaviri Eyyub İbrahimovun müsahibəsi

***- Eyyub müəllim, Vergilər Nazirliyi vergi ödəyicilərinin işini asanlaşdırmaq, İKT-nin imkanlarından daha geniş istifadə üçün davamlı tədbirlər həyata keçirir. Cari ildə bu sahədə son yeniliklər nədən ibarətdir?***

- Vergi qanunvericiliyinin daim təkmilləşdirilməsi Vergilər Nazirliyində tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) və digər informasiya sistemlərində əhəmiyyətli həcmdə işlərin aparılmasını tələb edir. Təkcə cari ildə vergi qanunvericiliyinə dəyişikliklərlə bağlı 5 qanun layihəsi hazırlanaraq yanvar, may, və iyun aylarında qəbul edilib. Bununla yanaşı, ölkə turizminin rəqabət qabiliyyətini artırmaq və xarici turistlərin cəlb edilməsini stimullaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 12 iyul 2016-cı il tarixli fərmanı ilə «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası» təsdiq edilib. Bütün bu dəyişikliklərin, xüsusilə «Tax Free» adlandırdığımız sonuncu layihə ilə bağlı vergi inzibatçılığının həyata keçirilməsi, eləcə də praktiki tətbiq proseslərini uzlaşdırmaq məqsədilə geniş tədbirlər görülüb.

Artıq xeyli müddətdir vergi ödəyiciləri istənilən yerdən çox əlverişli və rahat şəkildə vergi əməliyyatlarını ASAN imzanın köməyi ilə həyata keçirirlər. Bu il nazirliyin İnformasiya texnologiyaları şöbəsi tərəfindən ASAN imzadan istifadə imkanlarının daha da genişləndirilməsi və təkmilləşdirilməsi məqsədilə istifadəçilər üçün yeni təlimat layihəsi hazırlanıb, eləcə də vergilər nazirinin 25 fevral 2016-cı il tarixli əmri ilə «Elektron imza üçün sertifikat xidmətlərinin göstərilməsi üzrə İstifadəçi Təlimatı»ı təsdiq edilib.

Bu təlimata əsasən, bir neçə yeniliyin tətbiqinə başlanılıb. İlk dəfə olaraq ASAN ID kartlarının tətbiq edilməsi nəzərdə tutulur. Hazırda bu prosesin Vergilər Nazirliyi daxilində icrasına başlanılıb və müsbət nəticələr verir. Bundan sonra vergi əməkdaşı inzibati binaya daxil olarkən həmin kartdan istifadə edəcəkdir. Vergi əməkdaşları AVİS-ə və digər məlumat sisteminə daxil olmaq üçün şifrə-parol əvəzinə həmin kartlardan istifadə edəcəklər. ASAN ID kartları neqativ halların qarşısının alınmasında, informasiya təhlükəsizliyinin daha mükəmməl səviyyədə təşkil olunmasında mühüm rol oynayacaqdır. Bununla hər hansı vergi əməkdaşının inzibati binaya daxil olmadan AVİS-ə və digər məlumat bazasına daxil olması məhdudlaşdırılacaqdır.

Bundan başqa, İnformasiya texnologiyaları şöbəsində elektron imza vasitələrinin geniş tətbiq edilməsi məqsədilə struktur dəyişikliyi edilərək Elektron imza vasitələri bölməsi yaradılıb.

Daha bir yenilik isə vergi ödəyicilərinin çoxsaylı müraciətləri və xahişləri əsasında bu ilin avqust ayının 1-dən tətbiq olunur: ASXM portalından ASAN imza sertifikatının yenilənməsi prosesinə başlanıb və müddəti bitməyən sertifikatların internet vasitəsilə yenilənməsi xidməti işə salınıb.

***- «Tax Free» sisteminin işə salınması ilə bağlı əhəmiyyətli işlər görüldüyünü qeyd etdiniz. Vergilər Nazirliyinin vahid məlumat bazası operatoru kimi səlahiyyətlərini həyata keçirmək üçün hansı işlər görülüb?***

- Ölkə turizminin rəqabət qabiliyyətini artırmaq və xarici turistlərin cəlb edilməsini stimullaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 12 iyul 2016-cı il tarixli fərmanı ilə «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası» təsdiq edilib. Azərbaycana əcnəbi turistlərin marağının artırılması, turizm sektorunda son illər ərzində görülən işlərin davamlılığının təmin edilməsi və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin möhkəmləndirilməsi üçün beynəlxalq təcrübədə geniş istifadə olunan «Tax Free» sisteminin respublikamızda tətbiqinin təmin edilməsi olduqca mütərəqqi addımdır.

Bu qaydalar əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin həmin mallar gömrük qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisindən hava nəqliyyatı vasitəsilə aparılarkən geri qaytarılmasını nəzərdə tutur.

Fərmanın icrası ilə əlaqədar Vergilər Nazirliyinin İnformasiya texnologiyaları şöbəsi tərəfindən vahid məlumat bazası operatorunun səlahiyyətlərini həyata keçirmək üçün müvafiq işlər aparılıb, müəyyən edilmiş hallarda malların satışının rəsmiləşdirilməsi və əlavə dəyər vergisinin qaytarılması, proqram təminatının və vahid məlumat bazasının yaradılması və idarə olunması, proqram təminatının daim işlək vəziyyətdə saxlanılması və fasiləsiz fəaliyyətinin təmin edilməsi üçün təşkilati işlər görülüb, stikerin forması və tətbiqi qaydası müəyyənləşdirilib.

Aparılan işlər nəticəsində «Tax Free» sistemindən istifadənin elektronlaşması təmin edilib. Hazırda bu proses aşağıdakı formada həyata keçirilir: alıcı olan əcnəbi vətəndaş pasportunu təqdim etdikdən sonra satıcı e-VHF-ni Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-faktura sistemi vasitəsilə tərtib edərək, həmin məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürəcək. E-VHF, ştrix-kod əks olunmaqla, iki nüsxədə çap olunacaq və hər iki nüsxə alıcıya təqdim ediləcək. E-VHF satıcının imzası və mərkəzində bu əməliyyatların ƏDV-nin qaytarılması şərti ilə həyata keçirildiyinə dair təsdiqedici qeyd olan möhürlə təsdiqlənməklə təqdim edilməlidir. Alıcı aldığı malları Azərbaycan Respublikası ərazisindən apardıqda həmin mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə gömrük sərhəd-buraxılış məntəqəsində aldığı mallara dair e-VHF-ni pasportla birlikdə gömrük orqanı əməkdaşına təqdim etməlidir. E-VHF-nin məlumatları gömrük orqanı tərəfindən vahid məlumat bazasında eyniləşdirildikdən sonra avtomatik risk qiymətləndirməsi aparılır. Alıcının və ona məxsus malların gömrük nəzarətindən keçməsi tələb edildiyi halda, alıcı həmin malları gömrük baxışının keçirilməsi məqsədilə gömrük orqanı əməkdaşlarına təqdim edir. Gömrük orqanı əməkdaşları təqdim olunmuş mallarla vahid məlumat bazasına daxil edilmiş məlumatların uyğunluğunu yoxladıqdan sonra qaytarılacaq ƏDV məbləği barədə alıcının təqdim etdiyi e-VHF-də təsdiq qeydi aparır, onu möhürlə təsdiqləyərək alıcıya təqdim edir və vahid məlumat bazasında e-VHF-ni təsdiqləməklə məlumatı real vaxt rejimində müvəkkil banka ötürür. E-VHF-nin bir nüsxəsi gömrük orqanında saxlanılır, digər nüsxəsi isə alıcıya qaytarılır.

Alıcı dövlət sərhədinin buraxılış məntəqəsindən keçdikdən sonra müvəkkil bank gömrük orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq milli valyutada nağd ödəniş kimi və ya 10 iş günündən gec olmayaraq, xarici və ya milli valyutada bank kartına və ya hesabına köçürmə qaydasında qaytarır.

***- Müasir vergi inzibatçılığının inkişaf etdirilməsi və şəffaflığın təmin olunmasında informasiya texnologiyalarının tətbiqi hansı nəticələr verir?***

- Vergilər Nazirliyində Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) tətbiq olunmağa başlanıldığı tarixdən 10 ilə yaxın bir vaxt keçir. O zaman elektron kargüzarlıq nəinki Azərbaycanda, hətta yaxın ölkələrdə yenilik və inqilabi bir addım idi. Elektron kargüzarlıq vergi inzibatçılığını tamamilə yeni mərhələyə yönəldib. İlk növbədə süründürməçilik, müddət pozuntusu və digər hallar tamamilə aradan götürülüb. 10 il keçməsinə baxmayaraq Vergilər Nazirliyində mövcud olan elektron kargüzarlıq hələ də bənzərsiz və ən uğurlu inzibatçılıq forması kimi qalmaqdadır.

Müasir vergi inzibatçılığı vergi ödəyicilərinin də işini asanlaşdırıb və rahatlıq yaradıb. Hazırda tam əminliklə demək olar ki, vergi ödəyicisi vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı bütün hərəkətlərini heç yerə getmədən İKT imkanlarından istifadə edərək həyata keçirə bilir. Bu da birbaşa insan faktorunun və ehtimal olunan neqativ halların aradan qaldırılmasına xidmət edir.

Vergi ödəyicisi və digər şəxs Vergilər Nazirliyinə hər hansı bir məsələ ilə internet vasitəsilə müraciət edərkən həmin müraciətin hansı mərhələdə olmasını izləmək imkanına malikdir. Hazırda Vergilər Nazirliyi bu elektron xidməti təqdim edən yeganə mərkəzi icra hakimiyyəti orqanıdır. Qeyd etməliyəm ki, vergi inzibatçılığında şəffaflığın təmin edilməsinin ən bariz nümunələrindən biri olan bu müsbət təcrübə hazırda digər dövlət qurumları və özəl təşkilatlar tərəfindən maraqla öyrənilir.

***- Dünyada vergi sahəsində elektron xidmətlərin sadələşdirilməsi, vətəndaşların istifadəsi üçün mümkün qədər asanlaşdırılması istiqamətində işlər aparılır. Elektron xidmətlərdən hər bir vergi ödəyicisinin daha asan yararlanması üçün hansı işlər görülür?***

- Azərbaycanda vergi sahəsində elektron xidmətlərin keyfiyyəti və kəmiyyəti bir çox ölkələrdən daha təkmil və müasirdir. Başqa sahələrdən fərqli olaraq məhz vergiyə aid elektron xidmətlərin göstərilməsi üzrə bır sıra dünya ölkələrinin vergi xidmətləri Azərbaycan təcrübəsindən yararlanır.

Bizim məqsədimiz elektron vergi xidmətlərinin göstərilməsində dünyanın aparıcı ölkələri sırasında olmaqdır. Bu ilin may-iyun aylarında Estoniya Respublikasının paytaxtı Tallin şəhərində «E-idarəçiliyinin cəmiyyətə və ölkələrin iqtisadiyyatına olan təsirin təhlili, Avropa İttifaqı Tərəfdaşlığı ölkələrində elektron idarəçilik sahəsindəki layihələrinə dair praktiki müzakirə» mövzusunda keçirilən beynəlxalq tədbirdə iştirak etmişdim. Azərbaycanın Vergilər Nazirliyinin vergi sahəsində elektron xidmətlərin göstərilməsi təcrübəsi həmin tədbirdə geniş maraq obyektinə səbəb oldu.

Həmin beynəlxalq konfransda elektron-kassa cihazlarının tətbiqi barədə də müzakirələr aparılırdı. Biz bir sıra müasir və innovativ yeniliklər müşahidə etdik və aradan qısa zaman keçməsinə baxmayaraq, artıq həmin yeniliklərin Azərbaycanda tətbiq edilməsinə baxılır.

Bunlardan biri smartfon qurğularda elektron-kassa aparatlarının istifadə olunması ilə bağlıdır ki, yaxın zamanlarda bununla bağlı xüsusi layihə hazırlanacaq. Bu çox mühüm bir yenilikdir. Kiçik və orta sahibkarlar fiziki olaraq kassa aparatı almadan smartfon tipli telefonlara və digər cihazlara müvafiq proqram təminatı yükləməklə, qeydiyyatdan keçib «Mərkəz»lə əlaqə yaratmaqla elektron-kassa cihazlarından istifadə edə biləcəklər. Hazırda həmin layihə üzərində işlər davam edir.

***- Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində son yeniliklər barədə nə deyə bilərsiniz?***

- Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin təkmilləşdirilməsi dinamik bir prosesdir. Müəyyən sahələrin daha mükəmməl fəaliyyət göstərməsi ilə əlaqədar hər il AVİS-də yeniliklər aparılır. Qeyd etdiyim kimi, nazirliyin bir neçə struktur qurum və vahidlərində AVİS-ə daxil olma artıq rəqəmsal ID kartı ilə həyata keçirilir ki, bu da təhlükəsizlik tədbirlərinin daha da möhkəmlənməsinə xidmət edir. Həmçinin bu il AVİS-də vergi nəzarəti tədbirləri üzrə «Risklərə nəzarət» alt sistemi yaradılıb. Bununla yanaşı, «Elektron cinayət işi» alt sistemi üzrə işlər də başa çatdırılıb. Məlumat üçün bildirmək istəyirəm ki, buna bənzər alt sistem dünya ölkələrində yalnız İsraildə mövcuddur. İlin sonunadək AVİS-də daha bir sıra yeniliklərin də aparılmasını planlaşdırırıq.

*Müsahibəni hazırladı:*
**Rəşad SADIQOV**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Vergi öhdəlikləri

***Həyatın yığım və pensiya sığortası üzrə bağlanan müqaviləyə 3 illik müddət başa çatmamış xitam verildikdə və ya nağd qaydada sığorta haqqı ödənildikdə hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin (VM) 101.1-ci maddəsinə görə muzdla işləyən fiziki şəxslərin aylıq gəlirinin 2500 manatadək olan hissəsindən 14 faiz, 2500 manatdan çox olduqda isə 350 manat əlavə edilsin 2500 manatdan çox olan məbləğən 25 faiz dərəcəsi ilə vergi tutulur.

3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğlər fiziki şəxslərin gəlir vergisindən azaddır. (VM, maddə 102.1.8)

İşəgötürən tərəfindən fiziki şəxsin muzdlu işlə əlaqədar alınan gəlirindən çıxılan həyatın yığım sığortası və pensiya sığortası üzrə ödədiyi sığorta haqları yalnız bank vasitəsilə sığortaçının bank hesabına ödənildikdə çıxılır (VM maddə 116.2).

VM-in 116.2-ci maddəsində nəzərdə tutulan sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, ödənilmiş sığorta haqları sığortaçı tərəfindən ödəmə mənbəyində vergiyə cəlb olunur (VM, maddə116.3).

Həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən ödəniş mənbəyindən 10 faiz dərəcəsi ilə vergi tutulur (VM, maddə 123.4).

VM-in 116.2-ci maddəsində nəzərdə tutulan sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar ödəmə mənbəyində vergini tutmağa borcludurlar (VM, maddə 150.1.8).

**Qeyd olunanlara əsasən:**

həyatın yığım və pensiya sığortası üzrə Azərbaycan Respublikasının sığortaçıları ilə bağlanan müqaviləyə 3 illik müddət başa çatmamış xitam verildikdə, habelə nağd qaydada sığorta haqqı ödənildikdə sığortalının ödədiyi sığorta haqları VM-in 101.1-ci maddəsi ilə müəyyən olunmuş dərəcə ilə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən isə VM-in 123.4-cü maddəsinə uyğun olaraq ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

## Rəhbər vəzifələrdə çalışan vergi işçiləri üçün təlim

Rəhbər vəzifəli şəxslərin məsuliyyət və səlahiyyətlərini, tabeliklərində olan əməkdaşların idarə olunmasında və inkişaf etdirilməsində rolunu nəzərə alaraq, Vergilər Nazirliyində peşəkar və yüksək potensiallı dövlət vergi orqanı əməkdaşlarının müəyyən edilməsi, onların sistemli və planlı olaraq yuxarı menecer vəzifələrinə hazırlanması istiqamətində tədbirlər davam etdirilir. Ehtiyatda olan əməkdaşların idarəetmə, xüsusən insan resurslarının idarə olunması sahəsində bilik və bacarıqlarının artırılması üçün iyul ayının 8-də və 28-də «İnsan resurslarının idarə edilməsində liderlik» və «Komanda qurmaq bacarıqları» mövzularında təlimlər təşkil edilmişdir.

«İnsan resurslarının idarə edilməsində liderlik» mövzusunda təlimdə idarəetmə və liderlik anlayışı, liderin əsas xüsusiyyətləri və insan resurslarının idarə edilməsində rolu, liderlikdə meydana çıxan problemli vəziyyətlər və onların həlli yolları, işçilərin fəaliyyətinə nəzarət və onun növləri kimi mövzular əhatə edilmişdir.

«Komanda qurmaq bacarıqları» mövzusunda təlimdə isə komanda anlayışı, onun mahiyyəti və növləri, komanda işinin üstünlükləri, komandanın inkişaf mərhələləri və mərhələlərə uyğun idarəetmə üslubları, komandada rollar və idarəetmə zamanı onların nəzərə alınmalı olan fərdi xüsusiyyətləri, effektiv və qeyri-effektiv komandanı yaradan əsas səbəblər müzakirə edilmişdir.

Təlimlər interaktiv qaydada müasir təlim metodlarından və alətlərindən istifadə edilməklə keçirilmiş, əsasən iştirakçılar arasında müzakirələr, iştirakçıların bir-biri ilə təcrübə və fikir mübadiləsi, təlimçi ilə sual-cavabı və qrup tapşırıqları əsasında qurulmuşdur.

Bu cür təlimlərin keçirilməsində əsas məqsəd insan resurslarının idarə edilməsi sahəsində yeni tendensiyalar və innovativ metodlar barədə iştirakçıları məlumatlandırmaq, idarəetmə sahəsində yaxşı təcrübələri bölüşmək, meydana çıxan problemlər və onların həlli yollarını birgə üzə çıxarmaq və bununla da Vergilər Nazirliyinin mövcud insan resurslarından effektiv istifadə edərək qarşıda duran vəzifələrin daha səmərəli icrasına nail olmaqdır. Bu silsilədən olan təlimlərin il ərzində davam etdirilməsi nəzərdə tutulur.

ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə (www.taxes.gov.az/www.taxes/faq/sual.html) və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Şəffaflıq naminə...

## «Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün milli fəaliyyət planı»nın icrasına dair monitorinqin nəticələri təqdim olunub

«Transparency İnternational» təşkilatının ölkə üzrə bölməsi olan «Şəffaflıq Azərbaycan» İctimai Birliyi ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə həyata keçirilən «Azərbaycan şəffaflıq tərəfdaşlığı» layihəsi çərçivəsində «Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün milli fəaliyyət planı»nın monitorinq hesabatının təqdimatını keçirib. Dövlət orqanları nümayəndələrinin, Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platformasının və QHT təmsilçilərinin və digər vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə monitorinq hesabatının nəticələri ictimaiyyətə təqdim edilib, hökumətin korrupsiyaya qarşı mübarizə sahəsində gördüyü işlər müzakirə olunub.



«Şəffaflıq Azərbaycan» təşkilatının rəhbəri Rəna Səfərəliyeva bildirib ki, milli fəaliyyət planının qiymətləndirmə metodologiyası əsasında aparılan monitorinq konkret öhdəliklərin həyata keçirilməsi istiqamətində indiyədək aparılan fəaliyyətləri əhatə edir. Plana əsasən, dövlət orqanlarının üzərinə götürdüyü öhdəliklər 9 istiqamət üzrə qruplaşdırılıb:

- informasiya əldə edilməsinin asanlaşdırılması;
- dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi;
- normativ hüquqi aktların vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi;
- dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi;
- elektron xidmətlərin təkmilləşdirilməsi, maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın təmin edilməsi;
- vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması;
- mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflıq;
- açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri;
- əhali arasında paylanması.

### Bəzi dövlət qurumlarının fəaliyyətində açıqlığın və hesabatlılığın təmin olunmasına diqqət artırılmalıdır

Ekspert qrupunun üzvü Rəcəb İmanov bildirib ki, monitorinq qiymətləndirmələrinin nəticələrinə əsasən, «Açıq hökumətin təşviqinə dair milli fəaliyyət planı»nın icra olunduğu dövr ərzində müəyyən edilmiş istiqamətlər üzrə bir sıra işlər görülüb. Nəzərdə tutulan öhdəliklərin icrası ilə bağlı məlumatların, hesabatların dövlət qurumlarının saytında yerləşdirilməsi, bəzi dövlət qurumları tərəfindən rəsmi sorğulara cavab olaraq hesabatların təqdim olunması qənaətbəxş olsa da, bu sahədə bir sıra icra orqanlarının fəaliyyəti aşağı səviyyədədir. İqtisadiyyat, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri normativ hüquqi aktların layihələrinin, göstərilən xidmətlərin öz rəsmi internet səhifələrinin xüsusi bölməsində və «Elektron hökumət» portalında yerləşdirib, eləcə də zəruri məlumatların və hesabatlılığın təmin edilməsinə nail olublar. Digər dövlət qurumlarının fəaliyyətində açıqlığın və hesabatlılığın təmin olunmasına ciddi ehtiyac var. İctimai iştirakçılığın təmin olunması, informasiya açıqlığı, e-xidmətlər sahəsində yerli icra hakimiyyətlərinin əməletmə səviyyəsi aşağı səviyyədədir. Monitorinqin yekunlarına görə, qiymətləndirməyə cəlb edilmiş 37 fəaliyyətdən 17-si üzrə maksimum (46,0%), 11-i üzrə ortadan yüksək (29,7%), 6-sı üzrə orta (16,2%), 2-si üzrə ortadan aşağı (5,4%), 1-i üzrə isə minimum (2,7%) nəticə qeydə alınıb.

Qeyd olunub ki, ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi və ictimai dinləmələrin keçirilməsinə bəzi dövlət qurumları əməl etsə də, bir sıra icra dövlət orqanları bu məsələdə passivdir.

### Vergilər Nazirliyi informasiya açıqlığına görə ən yaxşı dövlət qurumlarındandır

Ekspert qrupunun üzvü, iqtisadçı Qubad İbadoğlu Vergilər Nazirliyi və Dövlət Neft Fondunu «Açıq hökumətin təşviqinə dair milli fəaliyyət planı» üzrə öhdələrinə düşən fəaliyyətləri ən yaxşı icra edən qurumlar kimi qiymətləndirib. Qeyd olunub ki, hər iki dövlət orqanı informasiya açıqlığına və göstərilən xidmətlərin əlçatanlığına görə digər dövlət qurumlarından öndədir: fəaliyyət planında Vergilər Nazirliyinin icra etdiyi vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması istiqaməti və DNF-nin icra etdiyi mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflıq fəaliyyəti istiqaməti üzrə maksimum nəticə əldə edilib. İqtisadçı bildirib ki, xüsusilə də vergi orqanına ünvanlanan bütün sorğulara operativ və təfərrüatlı şəkildə cavab almaq mümkündür. Bu qurumun internet resursları daim yenilənir və istənilən suala rahat və asanlıqla cavab tapmaq olur. Vergi orqanları vətəndaş cəmiyyəti institutları ilə fəal əməkdaşlıq aparır. Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlərin digər dövlət qurumlarının fəaliyyətində də olmasının arzu edildiyi vurğulanıb.

Bəzi təklif və tövsiyələrlə çıxış edən Qubad İbadoğlu neft gəlirlərinin azaldığı indiki mərhələdə fəaliyyət planında nəzərdə tutulan «Dövlət maliyyə nəzarəti haqqında» qanunun qəbulu prosesinin sürətləndirilməsini təklif edib. Qanunda dövlət maliyyə nəzarətini həyata keçirən qurumların səlahiyyətləri dəqiq müəyyənləşdirilməli, onların fəaliyyətinin əlaqələndirilməsi mexanizmi əksini tapmalıdır.

### Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanları artırılmalıdır

Konstitusiya Araşdırmaları Fondunun sədri Əliməmməd Nuriyev bildirib ki, mərkəzi və xüsusilə də yerli icra hakimiyyətlərinin internet saytlarının yaradılması müsbət addım olsa da, hələ informasiya təminatı baxımından xeyli işlər görülməli, internet resurslarından istifadə hər bir qurumun vəzifə və səlahiyyətləri çərçivəsində fəaliyyətləri tam və dolğun əhatə etməli, vətəndaşların gündəlik informasiya və xidmət almasına uyğun hala gətirilməlidir. Dövlət orqanları öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlərin ictimai təqdimatları ilə bağlı dəqiq meyarlara əsaslanmalıdır. Bu meyarlarda ictimai təqdimatların dövrülüyü, əhatə edəcəyi regionlar, təqdimatlarda iştirak edəcək insanların sosial tərkibi əks olunmalıdır. İcra orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi, rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi, regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi məsələləri növbəti fəaliyyət proqramında öz əksini tapmalıdır.

**E.CƏFƏRLİ**

# Geodeziya və kadastr xidmətləri modernləşdirilir

Əmlak Məsələləri Dövlət Komitəsi ən müasir texnologiyalar əsasında Azərbaycanda fasiləsiz fəaliyyət göstərən 37 stansiyadan ibarət AZPOS sistemləri vasitəsilə dövlət qurumları və özəl şirkətlərə geodeziya və kadastr xidmətləri göstərməyə başlayıb.

Komitədən «Trend»ə verilən məlumata əsasən, AZPOS sisteminin (Azerbaijan Positioning Observation System) imkanlarından geodeziya, çöl-ölçmə işləri aparmaq istəyən şirkətlər, avtomobil və ya dəmir yolları, su və kanalizasiya, neft kəmərlərinin çəkilişi ilə məşğul olan qurumlar istifadə edə bilir. Bu sistemdən istifadə hər şeydən əvvəl dəqiqlik, bütövlük, fasiləsiz, etibarlı, davamlı və keyfiyyətli xidmət kimi üstünlüklər qazandırır. İstənilən ərazidə çöl-ölçmə işlərini aparmaq və ərazinin koordinatlarını müəyyən etmək istəyən qurum AZPOS vasitəsilə göstərilən xidmətlərdən yararlanmaq imkanına malikdir. Bunun üçün Komitənin tabeliyində olan «Kadastr və Yer Quruluşu Layihə Tədqiqat Mərkəzi» MMC-yə müraciət edilməlidir. Bundan sonra Mərkəz müraciət edən şirkət və ya təşkilatların AZPOS sisteminə qoşulmasını təmin edir. Həmin şirkət və təşkilatlara istifadəçi adı və parol verilir ki, sistemə daxil olmaqla ona yaxın stansiyalar vasitəsilə lazımi koordinatları hesablaya bilir və digər geodeziya xidmətlərindən faydalana bilir.

Hazırda AZPOS sisteminin xidmətlərindən istifadə edən şirkət və qurumlar sırasında istifadəçi sayına görə su, kanalizasiya xətlərinin çəkilişi və neft-mədən işi, neft kəmərlərinin salınması-nı həyata keçirən qurumlar üstünlük təşkil edir.

AZPOS Azərbaycan Respublikası ərazisində geodeziya-ölçü işlərində tətbiq olunan yüksək dəqiqliyə malik qəbuledicilərin köməyi ilə koordinatları müəyyən edən informasiya sistemidir. Bu stansiyalar Azərbaycan Respublikası ilə Dünya Bankının birgə həyata keçirdiyi «Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi» çərçivəsində quraşdırılıb. AZPOS şəbəkəsi məlumatları dəqiq vaxt rejimində Differensial Qlobal Naviqasiya Peyk sistemi vasitəsi ilə emal etdikdən sonra elektron formada ötürür.

Sistem geodeziya xəritələrinin hazırlanması üçün baza rolunu oynayır. AZPOS daimi olaraq Amerikanın GPS və Rusiyanın GLONASS peyk siqnallarını qəbul edir. Sistem hələ tam işə düşməyən Avropa İttifaqının Galileo peyk siqnallarını da qəbul etmək iqtidarındadır. 37 ədəd Fasiləsiz Fəaliyyət Göstərən İstinad Stansiyaları bir-biri ilə əlaqə yarada biləcək konkret məsafələrdə yerləşdirilib. Respublika ərazisində hər hansı çöl-ölçmə işləri aparılarkən bu avadanlıqlar vasitəsilə müəyyən ərazilərin koordinatları vurulur. Sonra həmin məlumatlar stansiyalar vasitəsilə bazaya ötürülür. Bundan sonra istənilən ərazidə torpaq üzərində hər hansı iş görülərkən, məsələn avtomobil yolu çəkilərkən, yaxud su və ya kanalizasiya boruları çəkilərkən həmin koordinatlardan istifadə olunur. AZPOS fəaliyyətə başlamazdan əvvəl çöl-ölçmə işlərini aparmaq həm fiziki baxımdan çətin idi, həm də hər hansı ərazinin koordinatlarını müəyyənləşdirmək üçün uzun vaxt tələb olunurdu. İndi isə bu stansiyaların qurulması sayəsində istənilən ərazinin koordinatlarını daha rahat, həm də çox qısa vaxt ərzində əldə etmək olur. Üstəlik əvvəllər bu proses üçün bir neçə işçi qüvvəsi tələb olunurdusa, indi bir mühəndis AZPOS sistemindən istifadə etməklə və düyməni basmaqla ərazinin koordinatlarını verə bilir.

Bu stansiyalar dövlət əmlakının elektron idarəetmə sisteminin təkmilləşdirilməsini təmin edir. Daimi fəaliyyət göstərən geodeziya istinad şəbəkəsinin yaradılması və ortofotoxəritələrin hazırlanması məhz AZPOS şəbəkəsinin texniki imkanlarına əsaslanır. Həmçinin, sistem əmlak qeydiyyatı və dövlət əmlakının idarəetmə sistemləri üçün geodeziya, xəritə və kadastr məlumatlarının bazası rolunu oynayır. Bütün sahələr üzrə cari və perspektiv mərzçəkmə işlərinin yerinə yetirilməsində istifadə edilir. Məhz bu sistemin yaradılması sayəsində yeni peyk və aerofotosəvirlər vasitəsilə rəqəmli ortofotoxəritələrin tam dəsti hazırlanır, torpaq sahələrinin xəritələri tərtib edilir.

# Vergi məbləğini hesablamaq asanlaşdırılıb

2015-ci ilin dekabr ayında Vergi Məcəlləsinə edilmiş dəyişiklikdən əvvəl qüvvədə olan qanuna əsasən, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər eyni zamanda həm sadələşdirilmiş verginin, həm də ƏDV ödəyiciləri hesab olunurdular. Vergi Məcəlləsinin 218-ci maddəsinə edilmiş dəyişikliklər bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq və yaxud bu hüquqdan imtina etməklə ƏDV-nin, mənfəət (gəlir) vergisinin, əmlak vergisinin ödəyicisi olmaq hüququ vermişdir.

Hazırda qüvvədə olan qanunvericiliyə əsasən, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər:

1) sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etdikləri halda tikinti quraşdırma işlərinə başlandığı rübdə tikilən binanın sahəsinin hər kvadratmetri üçün 45 manata Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə əmsallarını tətbiq etməklə sadələşdirilmiş vergi hesablanmalı və hesablanmış vergi bərabər hissələrlə 10 rüb ərzində dövlət büdcəsinə ödənilməlidir. Bu halda hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, fiziki şəxslər isə ƏDV-nin və gəlir vergisinin ödənilməsindən azad edilirlər.

2) sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etmədikləri halda onlar tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdimedilmə dəyərindən ƏDV, təqdim etmədən əldə edilən gəlirləri ilə gəlirdən çıxılan xərc arasındakı fərqdən yaranan mənfəətdən mənfəət (gəlir) vergisi və həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə əmlak vergisi (hüquqi şəxslər üçün) dövlət büdcəsinə ödənilməlidir.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün, dövlətə ayrılan hissə istisna olmaqla, tikilən binanın yaşayış və qeyri-yaşayış sahələri (tikilən binanın hər mərtəbəsinin ümumi sahəsi), o cümlədən təqdim edilmək üçün ayrıca tikilən fərdi, şəxsi yaşayış və bağ evlərinin sahələri vergitutma obyektidir. Bina tikintisi ilə məşğul olan şəxs binanın yaşayış və qeyri-yaşayış sahələrinin sadələşdirilmiş vergisini ayrılıqda hesablayır. Qeyri-yaşayış sahələrinə əlavə 1,5 əmsal tətbiq edilir.

İndiyədək vergi ödəyiciləri, eləcə də vətəndaşlar tərəfindən xidmət mərkəzlərinə, «195-1» Çağrı Mərkəzinə, internet səhifəsinə edilən müraciətlərdən görünür ki, vətəndaşlar arasında ödəməli olduqları sadələşdirilmiş vergi məbləğinin müəyyənləşdirilməsi zamanı əsas sual doğuran hallar vergi dərəcələrinin, rayonlar üzrə əmsalların, Bakı şəhəri üzrə zonaların müəyyən edilməsi ilə bağlıdır.

Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərin və ya bina tikintisi fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin işini asanlaşdırmaq üçün bir müddət bundan əvvəl Vergilər Nazairliyinin rəsmi internet saytında hesablayıcı-kalkulyator istifadəyə verilmişdir. Bu köməkçi vasitənin yardımı ilə ödəməli olduğunuz verginin məbləğini asanlıqla müəyyənləşdirə bilərsiniz.

Kalkulyatorun xanalarına müvafiq məlumatları daxil etməklə ödənilməli olan vergi məbləği barədə dəqiq məlumat əldə etmək mümkündür. Kalkulyatora Bakı şəhərinin zonalar üzrə xəritəsi də əlavə edilib ki, bununla hər bir şəxs əmlakının yerləşdiyi ünvanın hansı zonaya aid olduğunu müəyyənləşdirə bilər.



**F. İKRAMQIZI**

# Yeddi aylıq proqnoz yerinə yetirilib

2016-cı ilin yanvar-iyul ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 3 milyard 849 milyon 942,5 min manat vəsait daxil olub, proqnoz tapşırığına 100,4 faiz əməl edilib.

Bu ilin ilk yeddi ayı ərzində 62 min 496 vergi ödəyicisi qeydiyyata alınıb.

# Bütün müraciətlərə vaxtında baxılıb

2016-cı ilin iyul ayı ərzində vergi orqanlarına 6682 müraciət daxil olub. Onlardan 95,8%-i ərizə, 4%-i şikayət, 0,2%-i təklifdir.

Müraciətlərin 39,7%-i müxtəlif arayışların alınması, 28,2%-i kameral vergi yoxlamaları, 7,2%-i vergi borcları, 1,9%-i vergidən yayınma və dividendlərin verilməsi, 1,8%-i səyyar vergi yoxlamaları, 1,0%-i qəbulla bağlı, 0,9%-i nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 0,5%-i işlə təmin edilməklə bağlı, 0,4%-i qanunsuz sahibkarlıq fəaliyyəti, 0,4%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,3%-i korrupsiya hüquqpozmaları, 17,7%-i digər məsələlərlə bağlıdır.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 63,3%-i müsbət həll olunub.

İyul ayı ərzində daxil olmuş şikayətlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 38,6% azalıb. Vergi orqanları tərəfindən ümumilikdə 396 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Nazirlər Kabinetinin qərarı ilə yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanılması, zərərsizləşdirilməsi və ya məhv edilməsi ilə bağlı xidmətlərin qiymətləri dövlət tərəfindən tənzimlənəcək.

Mərkəzi Bankın İdarə Heyəti avqustun 8-dən likvidlik əməliyyatları üzrə faiz dəhlizinin aşağı və yuxarı hədlərini dəyişməz saxlamaqla uçot dərəcəsini 9,5% səviyyəsinə qaldırmaq barədə qərar qəbul edib.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Çin Xalq Respublikasının Beynəlxalq Ticarətin Təşviqi Şurası (CCPİT) arasında iqtisadi-ticarət və investisiya əlaqələrinin inkişaf etdirilməsinə, ixracın və xarici sərmayələrin təşviqi sahəsində təcrübə mübadiləsinə dair Anlaşma Memorandumu imzalanıb.

Neftçala Sənaye Məhəlləsində Azərbaycanın «Azevrocar» MMC şirkətinin İranın «İran Khodro» şirkəti ilə birgə həyata keçirdiyi layihə çərçivəsində avtomobil istehsalı zavodunun təməli qoyulub.

Ənənəvi olaraq hər il keçirilən Azərbaycan-Rusiya regionlararası forumu bu ilin oktyabrında ölkəmizdə təşkil olunacaq.

Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları bu ilin sonunadək bir neçə iri müştərək layihənin icrasına başlayacaq.

Oktyabrın 24-dən 27-dək Avstraliyada keçiriləcək «BioFest 2016» tədbirində Azərbaycan şirkətlərinə «Bioindustry» sərgi zalında ödənişsiz ərazi təklif olunub.

# Müstəqilliyimizin bir nömrəli qarantı



Seymur Əliyev
moderator.az

Kiçik ixtisarla təqdim etdiyimiz yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda müsabiqədə üçüncü yerə layiq görülüb.

***Vergi daxilolmaları dövlətin oksigen balonu rolunda...***

Dünyanın istənilən ölkəsində vergi sisteminin dövlət və vətəndaş həyatındakı rolu olduqca böyükdür. Vergi sadəcə dövlət büdcəsinin doldurulması prosesi deyildir, daha çox cəmiyyət həyatının, çoxsaylı dövlət və qeyri-dövlət institutlarının fəaliyyətinin tənzimlənməsi, dövlət adlı nəhəng maşının bütün çarxlarının vaxtında və lazımi keyfiyyətlə işləməsini təmin edən sistemdir.

***Vergi ödənişlərinin dövlət üçün əhəmiyyəti nədən ibarətdir?***

Dövlət büdcəsinə müxtəlif istiqamət və sahələrdə müxtəlif miqyasda daxilolmalar gəlsə də, hər bir dövlətin əsas gəlir mənbəyini vergi ödənişləri təşkil edir. Bu, bəzi Avropa dövlətlərində 75-80%, Fransa kimi yüksək iqtisadi inkişaf göstəricisinə malik dövlətdə isə 90%-dir. Vergi ödənişlərinin digər ödənişlərdən əhəmiyyətli fərqi onun daha stabil və idarəolunan olmasıdır. Məsələn, idxal-ixrac əməliyyatları yerli və dünya iqtisadiyyatındakı proseslərdən asılı olduğu üçün bu sahədən dövlət büdcəsinə gələn gəlirlər kəskin surətdə arta və ya azala bilər: son iki devalvasiyadan öncə Azərbaycanın dövlət büdcəsinə ən çox vəsaitin neft gəlirlərindən gəldiyi kimi... Lakin dünyadakı iqtisadi böhran, dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi neft gəlirlərinin də kəskin şəkildə azalmasına səbəb oldu. Bu fakt bir daha sübut etdi ki, hətta neft bumunu yaşayan dövlətlər belə daha çox vergi daxilolmalarına arxalanmalıdır. Çünki vergi daxilolmaları digər gəlirlərə nisbətən daha sabit, daha sistemlidir və bu gəlirlərin qısa zamanda kəskin dəyişilmələrə məruz qalma ehtimalı daha aşağı olduğu üçün məhz vergi gəlirlərinə arxalanaraq uzunmüddətli layihələr həyata keçirmək, sosial planları reallaşdırmaq mümkündür.

Vergi ödənişləri dövlətin maliyyə siyasətinin icrası, sosial layihələrin, əməkhaqqı və pensiyaların vaxtında ödənilməsini təmin etmək baxımından müstəsna əhəmiyyətə malikdir. Vergi daxilolmalarında hər hansı problemin yaranması bu nəhəng və mürəkkəb sistemin normal fəaliyyətini əngəlləməklə yanaşı, minlərlə, milyonlarla insanın sosial keçimində müxtəlif çətinliklərin yaranmasına səbəb olur.

***Vergi daxilolmaları sosial-iqtisadi təhlükəsizliyin və ictimai sabitliyin təminatçısı rolunda***

Dünyanın bütün qabaqcıl ölkələrində vergi daxilolmaları ölkənin iqtisadi təhlükəsizliyinin və ictimai sabitliyinin qarantı rolunda çıxış edir. Beynəlxalq təcrübənin təhlili göstərir ki, şəffaf və optimal vergi sisteminə malik dövlətlərdə sosial-iqtisadi təhlükəsizlik, habelə ictimai sabitlik daha yüksək səviyyədə olur. Məsələn, dövlət büdcəsinin 80%-i vergi daxilolmaları hesabına formalaşan, 50-yə yaxın vergi növü tətbiq edilən Almaniyada vergi sistemi sosial-iqtisadi sabitliyin qorunmasında mühüm rol oynayır. Aktiv və davamlı islahatlara meyilli vergi sistemi sosial layihələrin, dövlət və qeyri-dövlət institutlarının fəaliyyətinin saat mexanizmi kimi dəqiq və qüsursuz işləməsini tənzimləyir, ictimai təlatümlərin, sosial narazılıqların meydana çıxmasına imkan vermir.

***Ordu, yoxsa vergi sistemi?***

Silahlı qüvvələrin hər bir dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün təminində müstəsna rol oynadığı hamıya bəllidir. Lakin məntiqlə yanaşanda, bütün dövlətlərin, eləcə də Azərbaycanın müstəqilliyinin bir nömrəli qarantının vergi sistemi olduğunu görürük. Çünki ordunu ayaqda tutmaq, silahlı qüvvələrin maddi-texniki təchizatını təmin etmək üçün lazım olan bütün vəsaitlər vergi əsasında formalaşan dövlət büdcəsindən əldə olunur.

Odur ki, vergi ödənişlərinə adi bir prosedur kimi deyil, dövlətin müstəqilliyini, güc və qüdrətini təmin edən zəruri və şərəfli bir iş kimi yanaşılmalı, bu məsələdə ən xırda səhlənkarlığa, boşluğa yol verilməməlidir.

***Dərk olunmalı borc, yaxud ekspertdən sahibkarlara çağırış***

Vergiləri vaxtında və tam həcmdə ödəməyin həm borc, həm də mədəniyyət nümunəsi olduğuna diqqət çəkən iqtisadçı ekspertlər də hesab edirlər ki, sahibkarlar bu borcun əhəmiyyətinin fərqinə varmalı, üzərlərinə düşən missiyanı nümunəvi şəkildə yerinə yetirməlidirlər.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri, iqtisadçı alim Vüqar Bayramov açıqlamasında sahibkarları bu məsələdə aktiv və məsuliyyətli olmağa səsləyib: «Azərbaycanda sahibkarlıq mədəniyyəti lazımi səviyyədə deyil. Məhz bu səbəbdən də bəzi sahibkarlar vergidən yayınmağa cəhd edir, müxtəlif üsullarla buna nail olmağa çalışırlar. Halbuki sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar anlamalıdırlar ki, vergi vermək onların borcudur. Hesab edirəm ki, ölkədə sahibkarlıq mədəniyyətinin artırılmasına ehtiyac var. Çünki bütövlükdə vergi sahəsindəki vəziyyətin yaxşılaşması Vergilər Nazirliyinin həyata keçirdiyi islahatlarla yanaşı, həm də sahibkarlıq mədəniyyətinin yüksəlməsindən asılıdır».

***ABŞ-ın vergi nümunəsi, yaxud gəlir naminə beynəlxalq əməkdaşlıqdan imtina...***

Vergilərin dövlət və onun fəaliyyətində hansı rola malik olduğunu anlamaq üçün ABŞ-ın vergi sisteminə, bu sistemin bəzi incəliklərinə nəzər yetirmək kifayətdir.

ABŞ-da vergi siyasəti bütün mümkün yollarla dövlət büdcəsinin doldurulması prinsipinə xidmət edir. Məhz bu səbəbdən də ABŞ hökuməti beynəlxalq vergimaliyyə şəffaflığını təmin etmək məqsədilə yaradılan bir sıra beynəlxalq təşkilatlara daxil olmaqdan açıq şəkildə imtina edib. İşin daha maraqlı tərəfi isə ABŞ-ın ölkə ərazisində fəaliyyət göstərən əcnəbi şirkət və müəssisələri, onların gəlirləri, ödədikləri vergilər və s. ilə bağlı həmin əcnəbilərin vətəndaşı olduğu dövlətlərin rəsmi sorğusuna belə cavab verməməsidir. ABŞ rəhbərliyi belə hesab edir ki, hökumət ABŞ-ın dövlət büdcəsinə vergi ödəyən əcnəbilərə məxsus istənilən müəssisənin uzunmüddətli fəaliyyətini təmin etməli, ona qarşı istənilən təzyiqin və müdaxilənin qarşısını almalıdır. Çünki həmin müəssisə və obyektin hər hansı səbəbdən öz fəaliyyətini dayandırması dövlət büdcəsi üçün itki deməkdir. Bu isə ABŞ hökuməti, onun milli maraqlara söykənən siyasəti baxımından yolverilməzdir. Məhz bu səbəbdən də Ağ Ev dövlət büdcəsinə vergi pullarının mütəmadi axınını təmin etmək üçün beynəlxalq təşkilatların şəffaflıq və qarşılıqlı yardımla bağlı təklif və iradlarına heç də həmişə etina göstərmir...

***Vergi sistemindəki boşluqların davamlı axtarış mexanizminin Qərb nümunəsi***

ABŞ və ümumilikdə Qərb dövlətlərinin vergi sisteminin daha bir özəlliyi isə artıq oturuşmuş olan vergi sisteminin hər il yenidən gözdən keçirilməsi, sistemdəki ən xırda boşluqların belə təsbit edilib aradan qaldırılmasıdır. Vergi sistemini sadəlikdən mükəmməlliyə doğru aparmaq, sistemin daha optimal və çevik fəaliyyətini təmin etmək, kiminsə vergidən yayınmasına imkan verməmək, habelə vergi ədalətini təmin etmək üçün vergi sistemi hər il ciddi şəkildə təhlil edilir ki, bu da ilk baxışda görünməyən, sezilməyən boşluqları aşkar etməyə, vergi sistemini hər il bir addım daha irəli aparmağa imkan verir. Bununla yanaşı, həmin dövlətlər vergi sistemini təkmilləşdirmək üçün sadə vətəndaşlardan, iqtisadçılardan, vergi mütəxəssislərindən də təkliflər almağa böyük maraq göstərir və ictimaiyyəti buna həvəsləndirir.

Bu baxımdan, Qərb dövlətlərinin oxşar təcrübəsinin Azərbaycanda da tətbiqinə böyük ehtiyac var. Praktikada özünü təsdiqləyən bu cür təcrübələrin tətbiqi Azərbaycanın dövlət büdcəsinə daxil olan vəsaitlərin artmasına, vergi mühitinin yaxşılaşmasına təkan verə bilər ki, bu da dövlətin vətəndaş qarşısındakı öhdəliklərini daha yüksək səviyyədə yerinə yetirməsinə, əhalinin sosial rifah şəraitini yüksəltməyə imkan verər.

# Azərbaycana turistlərin marağı artır

Turizm Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda prioritet sahələrindən biridir. Dünya bazarında neftin qiymətinin aşağı düşməsi ölkəmizdə də qeyri-neft sektoruna, xüsusən turizmə daha çox sərmayənin cəlb edilməsinin zəruriliyini ortaya qoyur. Azərbaycan hökuməti ölkəmizdə iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin 11 istiqamətindən biri olan turizmin inkişaf etdirilməsi üçün yeni-yeni layihələr həyata keçirməyi planlaşdırır.



Hazırda ölkəmizdə ümumi daxili məhsulun 4,5 faizini turizmdən gələn gəlirlər təşkil edir. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumunun 2015-ci il üçün «Səyahət və turizm rəqabətliliyi hesabatı»nda Azərbaycan 141 ölkə arasında 36-cı yerdə qərarlaşmışdır. Hazırda respublikamızda 300-dək turizm şirkəti və 570-dən çox yerləşdirmə məkanı fəaliyyət göstərir.

Son 10 il ərzində Azərbaycana gələn turistlərin sayı 5 dəfədən çox artmışdır. Bu tendensiya özünü 2016-cı ilin ilk 6 ayında da göstərib. Mədəniyyət və Turizm Nazirliyinin məlumatına görə, son 6 ay ərzində Rusiyadan, Avropa və ərəb ölkələrindən, İran və MDB-dən gələn əcnəbi qonaqların sayı əhəmiyyətli dərəcədə artmaqdadır. Bu ilin may ayında ölkəmizə səfər edən turistlərin sayı ötən illə müqayisədə 30 dəfə çox olmuşdur. İlin ilk altı ayında isə Azərbaycana gələn əcnəbi vətəndaşların sayı 972 min nəfər təşkil etmişdir.

Şübhəsiz ki, Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, konfrans və sərgilər də bu göstəricilərə öz müsbət təsirini göstərir. Ötən il tarixdə ilk dəfə təşkil edilmiş I Avropa Oyunlarının və bu il Formula-1 üzrə Avropa Qran-pri yarışının Azərbaycanda keçirilməsi ölkəmizə daha çox turistin cəlb olunmasında mühüm rol oynamışdır. Formula-1 yarışının tamaşaçı auditoriyası bütün qitələri əhatə etmişdir və yarış 187 ölkədə izlənilmişdir. Yarışı dünyanın 50-dən artıq televiziya kanalı yayımlamışdır. Digər nüfuzlu beynəlxalq tədbirlər kimi Formula-1 üzrə Avropa Qran-prisi də ölkəmizə turist axınının sürətlənməsinə, ölkəmizin əcnəbi vətəndaşlar tərəfindən daha yaxından tanınmasına, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına müsbət təsir göstərmişdir.

Azərbaycanda turizmin maraq doğuran sahələrindən biri də tibbi turizmdir. Bu sahədə Naftalan daha böyük ümidlər vəd edir. 2016-cı il ərzində Naftalan şəhərinə gələn turistlərin sayı 7000 nəfərə çatmışdır. Nəzərə alsaq ki, 2014-cü ildə Naftalana cəmi 3000 xarici turist gəlmişdi, bu göstərici ölkəmizin sağlamlıq ocağına artan marağı daha əyani şəkildə təsdiqləyir.

O da maraqlıdır ki, Azərbaycana gələn turistlərin 1550 nəfəri Türkiyə, Polşa, Yaponiya, Çin, Slovakiya, Gürcüstan, Qazaxıstan və digər dövlətlərin vətəndaşlarıdır.

Hazırda paytaxt Bakıda fəaliyyət göstərən irili-xırdalı turizm-müalicə mərkəzlərində gün ərzində iki mindən artıq qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək imkanı var. Müalicəvi əhəmiyyətə malik olan məşhur Naftalan nefti ilə 70-dən artıq xəstəliyin müalicəsi aparılır.

Turizmin getdikcə inkişaf etməsi yeni iş yerlərinin açılmasına, bu sahədən dövlət büdcəsinə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərir.

**RƏŞAD**

# Yeni İpək Yolu layihəsində Azərbaycanın rolu

Böyük Britaniyanın «Financial Times» qəzeti «Yeni İpək Yolu» layihəsinin həyata keçirilməsində Azərbaycanın mühüm rolu haqqında reportaj yayımlayıb.

«Yeni İpək Yolunu keçərək» adlı reportajda müxbir Cek Ferçi layihənin üstünlükləri barədə məlumat verib. Gəmi ilə Qazaxıstandan Azərbaycana səyahət edən müəllif bildirib ki, bu gün Çin Şərqi Asiyadan Yaxın Şərq və Avropayadək uzanan qədim İpək Yolunu bərpa etməyə çalışır. Minilliklər böyük İpək Yolu ilə ipək parçalar, ədviyyatlar, xalçalar alan Avropaya qiymətli iplərlə dolu karvanlar yollanıb. Qəzetin müxbiri bu gün həmin karvanların nəhəng konteyner qatarları ilə əvəz edildiyini söyləyir. Cek Ferçi yeni İpək Yolunun Çindən Avropa bazarına ən qısa yol olduğunu vurğulayır.

«Financial Times»ın müxbiri ilə söhbətində «Aktau Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin prezidenti Mixail Yalpaçov Çindən yola düşərək dəmir yolu vasitəsilə Qazaxıstandan keçən konteyner qatarının Aktaudan Bakıya cəmi beş günə çatacağını bildirir.

Müəllif qeyd edir ki, Azərbaycan yeni İpək Yolunun yaradılması ideyasını fəal şəkildə dəstəkləyir və yük daşımalarına tariflərin azaldılması təşəbbüsü ilə çıxış edib. Bu isə öz növbəsində marşrut üzrə yüklərin nəqlini əhəmiyyətli dərəcədə yüngülləşdirəcək.

Azərbaycanın maliyyə naziri Samir Şərifov isə bildirir ki, layihənin reallaşdırılmasına cəlb edilən ölkələrin bütün müvafiq qurumlarının işi yük daşıyıcılarını qane edəcək ədalətli tariflərin müəyyənləşdirilməsindən ibarətdir. Nazir qeyd edir ki, bu gün bütün ölkələr nəqliyyat marşrutlarının şaxələndirilməsində maraqlıdır. Azərbaycan mövcud marşrutlara alternativ təklif edir.

«Financial Times»in müxbiri reportajında diqqətə çatdırır ki, Azərbaycan və Qazaxıstan üçün yeni İpək Yolu iqtisadiyyatın neftdən asılılığını azaltmağa yönələn layihələrdən biridir.

Cek Ferçinin «Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin baş direktoru Taleh Ziyadovla söhbətində vurğulanır ki, bu layihənin həyata keçirilməsi region ölkələri arasında əlaqələri dərinləşdirməyə, yeni iş yerlərinin yaradılmasına imkan verəcək, Azərbaycan kimi dünya okeanına çıxışı olmayan ölkələrin inkişafında böyük rol oynayacaq.

Müxbir Aktau və Bakının bu layihə çərçivəsində regionun aparıcı liman şəhərlərinə çevrilə biləcəyini diqqətə çatdırır.

# Ünvanlı dövlət sosial yardımı tam ləğv olunmur

Ölkəmizdə aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı proqramını ilə əhatə edilməsi, həmin ailələrə bu yardımların təyin olunması və ödənişi prosesi davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yaradılmış və cari il fevral ayının 15-dən tətbiqinə başlanmış Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) vasitəsilə aztəminatlı ailələr ünvanlı dövlət sosial yardımından heç bir məmur müdaxiləsi mümkün olmadan, tam şəffaf şəraitdə faydalanırlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev bildirib ki, ayrı-ayrı KİV-lərdə guya ünvanlı dövlət sosial yardımı proqramının dayandırılması barədə məlumatlar əsassız, şayiə xarakterli olmaqla ictimai rəyi çaşdırmağa yönəlib: «VEMTAS ünvanlı dövlət sosial yardımı üzrə əhaliyə xidmətlərin müasir və şəffaf, məmur-vətəndaş təmasları olmadan, vətəndaşlar üçün çevik və rahat şəkildə həyata keçirilməsini tam təmin edir. Sosial yardımların təyinatı prosesi avtomatlaşdırılmış qaydada, yəni hansısa bir məmurun iradəsindən asılı olmadan həyata keçirilir. Bunun nəticəsidir ki, ünvanlı dövlət sosial yardımının təyinatının avtomatlaşdırılması, həmin sistem vasitəsilə sosial yardımların təyinatında ünvanlılığın və şəffaflığın təmin edilməsi elə ilk vaxtlardan cəmiyyətdə birmənalı olaraq rəğbətlə qarşılanıb. Əhaliyə xidmətlər sisteminin elektron texnologiyalar üzərində qurulması sahəsində ölkəmizin uğurlu islahat təcrübəsi olan və mükəmməl proqram təminatları əsasında fəaliyyət göstərən bu sistem vasitəsilə ailələri təmsil edən vətəndaşların elektron şəkildə müraciətlərinin qəbulu, avtomatlaşdırılmış şəkildə araşdırılması və qərar verilməsi prosesi hazırda uğurla davam etdirilir».

**Hazırda ölkədə ümumilikdə 573.903 min nəfər ailə üzvünü əhatə edən 131.726 min nəfər ailə ünvanlı dövlət sosial yardımı ilə təmin edilir**

E.Babayev bildirib ki, elektron sistem tərəfindən indiyədək 75268 nəfər ailə üzvü olan 18855 ailəyə avtomatlaşdırılmış qaydada ünvanlı dövlət sosial yardımı təyin olunub. Hazırda ölkədə ümumilikdə 573.903 min nəfər ailə üzvünü əhatə edən 131.726 min nəfər ailə ünvanlı dövlət sosial yardımı ilə təmin edilir.

Şöbə müdiri Azərbaycan Respublikası Prezidentinin 16 mart 2015-ci il tarixli sərəncamına əsasən, ünvanlı dövlət sosial yardımlarının təyinat müddətinin bir ildən iki ilədək uzadıldığını qeyd edib: «Hazırda ünvanlı sosial yardım alan ailələr də həmin sərəncamın imzalandığı vaxtdan sonra iki illik müddətə yardım təyin olunanlardır və ona görə də onlardan heç birinə bu il ərzində ünvanlı dövlət sosial yardımının verilməsi dayandırılmayacaq».

Ünvanlı dövlət sosial yardımı proqramının aztəminatlı ailələrin yoxsulluğun çətinliklərindən qorunmasına yönəldiyini qeyd edən E.Babayev bildirib ki, bununla belə, həmin proqram aztəminatlı ailələrin yoxsulluqdan çıxmasını şərtləndirmir. Ona görə də belə ailələr sırasından müvafiq potensialları olan ailələrin özünüməşğulluğuna, beləliklə, yoxsulluq vəziyyətindən çıxmalarına şərait yaradılması hazırda əsas fəaliyyət istiqamətlərindən biridir. Hazırda nazirlik tərəfindən Azərbaycan Prezidentinin «Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında» 7 aprel 2016-cı il tarixli sərəncamı ilə aztəminatlı ailələrin özünüməşğulluğunun təmin olunmasına yönəlik işlər aparılır: «Sərəncamla qeyd olunan məqsəd üçün ayrılmış 6 milyon manat vəsait hesabına ölkə üzrə təqribən 1400 ailənin özünüməşğulluğu təmin ediləcək. Əmək qabiliyyətli ailə üzvləri olan belə ailələr üçün kiçik ailə təsərrüfatları yaradılması ilə bağlı zəruri tədbirlər görüləcək. Bu istiqamətdə işlərin dolğun və məqsədyönlü şəkildə tənzimlənməsi üçün «İşaxtaran vətəndaşların özünüməşğulluq fəaliyyətinin təşkili Tələbləri» hazırlanaraq nazirliyin Kollegiyasının müvafiq qərarı ilə təsdiq edilib. Özünüməşğulluq layihələrinə cəlb olunacaq vətəndaşlara biznesin təşkili ilə bağlı təlimlər də keçiriləcək, onlara biznes fəaliyyətinin inkişafı ilə bağlı məsləhətlər veriləcək».

Artıq yaxın vaxtlarda aztəminatlı ailələrin özünüməşğulluğunun təmin olunması istiqamətində praktik işlərə başlanacağını qeyd edən nazirlik rəsmisi bununla da aztəminatlı ailələr üçün dayanıqsız passiv sosial təminat tədbirlərindən dayanıqlı aktiv məşğulluq proqramlarına keçiləcəyini bildirib: «Özünüməşğulluq proqramına bunun üçün müvafiq potensialları, əmək qabiliyyətli üzvləri olan aztəminatlı ailələrin cəlb edilməsi nəzərdə tutulur və bu proqramın icrası ünvanlı dövlət sosial yardımı proqramının dayandırılmasını şərtləndirmir. Ona görə də özünüməşğulluq proqramı ilə paralel olaraq, özlərindən asılı olmayan səbəblərdən yoxsulluq vəziyyətində yaşayan, məşğulluq tədbirlərinə cəlb olunmaq üçün potensialları olmayan ailələrin dövlətin sosial yardımları ilə təmin edilməsi prosesi də davam etdiriləcəkdir».

# Sumqayıtda sürtkü yağları zavodu tikiləcək

«Alco Lubricant Company» şirkəti Sumqayıt Kimya Sənaye Parkında (SKSP) sürtkü yağları istehsal edən zavod inşa etməyi planlaşdırır. Layihəyə investisiya qoyuluşları $10 həcmində qiymətləndirilir. Fins.az-ın verdiyi xəbərə görə, şirkət artıq SKSP-nin rezidenti lisenziyasını alıb. Bu sənədi şirkətin nümayəndəsinə iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov təqdim edib.

Qeyd edək ki, «Alco Lubricant Company» parkın 9-cu rezidentidir. Layihə çərçivəsində şirkət park ərazisində alman texnologiyası əsasında sürtkü yağları istehsal edən zavod inşa etməyi planlaşdırır. İllik gücü 30 min ton olacaq zavodun 2017-ci ilin II yarısında istismara verilməsi nəzərdə tutulur. Zavodda 100 nəfərə yaxın işçi çalışacaq. Zavodda istehsal olunacaq məhsullar daxili tələbatın ödənilməsinə və ixraca yönəldiləcək.

Sumqayıt Kimya Sənaye Parkı ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şəraitin formalaşdırılması, bu sahədə sahibkarlığın dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə yaradılıb. Parkın ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabət qabiliyyətli məhsulların (işlərin, xidmətlərin) istehsalı və emalı müəssisələri yaradılacaq.

## vergi təqvimi

| AVQUST | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | **7** |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | **14** |
| **15** | 16 | 17 | 18 | 19 | 20 | **21** |
| **22** | 23 | 24 | 25 | 26 | 27 | **28** |
| 29 | 30 | 31 | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

15 avqust - «5», «(5)» və «6».

22 avqust - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər avqust ayının 15-dən gec olmayaraq illik əmlak vergisinin yarısını yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Avqust ayının 15-dən gec olmayaraq illik torpaq vergisinin yarısını hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# «Facebook»un adı milyardlarla dollar vergi cəriməsində hallandırılır

Bütün dünyada ən populyar sosial şəbəkə yaratmış «Facebook» şirkəti vergi ödəməkdən yayındığına görə ABŞ-da böyük məbləğdə cərimə ödəmək məcburiyyəti ilə üz-üzə gəlməli olmuşdur. Ehtimal edilən cərimə məbləği 3 milyard dollardan 5 milyard dollara qədər dəyişir.




Qərb mediasının yaydığı xəbərlərə görə, ABŞ-ın «Facebook» şirkəti öz ölkəsində vergidən yayınmaq üçün aktivlərinin qiymətini xeyli aşağı salmışdır.

CNN televiziyası bu məlumatı verərkən Mark Zukerberqin şirkətinin baxılmaq üçün ABŞ-ın qiymətli kağızlar və birjalar komissiyasına göndərdiyi sənədə əsaslanmışdır. Həmin sənədə görə, şirkətin rəhbərliyi etiraf etmişdir ki, əgər günahı təsdiq olunarsa, bu ağlagəlməz məbləğdə cərimə şirkətin maliyyə vəziyyətinə «mənfi təsir» göstərəcək. «Biz ABŞ-ın Daxili Gəlirlər Xidmətinin (DGX) mövqeyi ilə razıyıq və ABŞ-ın vergi məhkəməsinə DGX-nin tələbinə etiraz məqsədilə ərizə verəcəyik», - CNN istinad etdiyi sənəddən bu sitatı vermişdir.

Xatırladaq ki, hələ iyul ayının əvvəlində CNN teleşirkətinin jurnalistləri məlumat vermişdilər ki, ABŞ Ədliyyə Nazirliyi «Facebook» şirkətini vergidən yayınma ilə bağlı məlumatların araşdırılmasına əngəl törətməyi dayandırmağa məcbur etmək üçün məhkəmə iddiası qaldırmışdır. Aydın olmuşdur ki, bu problemin kökü 2010-cu ildən gəlir, o vaxt «Facebook» İrlandiyada aktivlərinin bir hissəsinin mülkiyyət hüququnu öz filialına vermişdi.

Elə o vaxt da DGX «Ernst & Young « auditor şirkətinin vergidən yayınmaqla bağlı cinayətkar sxemdə iştirakından şübhələnmişdi. Başqa məsələlərlə yanaşı, bu şirkətin auditorlarının «Facebook»un aktivlərinin qiymətləndirilməsini həyata keçirmək, eləcə də həmin aktivlərin qiymətlərini «milyardlarla dollar aşağı salmaq» hüququ vardı.



# Almaniya və ABŞ «qlobal vergilərin» tətbiq olunmasını təklif edib

G20 ölkələrinin maliyyə nazirlərinin iyulun sonunda Çində keçirilmiş son sammitində digər məsələlərlə yanaşı, beynəlxalq vergitutma sistemində dəyişikliklərin edilməsi də gündəliyə gətirilmişdir. Almaniya qlobal səviyyədə pul axınlarının vergiyə cəlb edilməsi məsələsini qaldırmışdır. Ölkənin maliyyə naziri Volfqanq Şoyble demişdir ki, belə bir ümumi vergitutma mexanizminin yalnız Avropa məkanında tətbiq edilməsi azdır. ABŞ maliyyə naziri Ceykop Lyu da buna oxşar mövqe ifadə etmişdir: «Ölkələr üçün transfert qiymətqoymanın daha mühüm məsələləri ilə bağlı ümumi standartın olması vacibdir». Onun qənaətinə görə, vergidən yayınma hallarına qarşı ölkələr birlikdə fəaliyyət göstərməlidirlər. Çinin maliyyə naziri Lu Tszivey isə əlavə etmişdir ki, beynəlxalq biznes «qüvvədə olan beynəlxalq vergitutma qarşısında mürəkkəb çağırışlar irəli sürərək» əhəmiyyətli dərəcədə dəyişmişdir.

Müzakirə edilən mövzu transmilli şirkət və korporasiyaların «vergi vadiləri» adlandırılan, Avropada Lüksemburq və ya İrlandiya kimi ölkələrdə vergilərin aşağı olduğu, yaxud heç olmadığı ölkələrdə qeydiyyata alınmaq təcrübəsini də əhatə etmişdir.

Sammitin yekun qətnaməsində müvafiq referendumun nəticələrinə əsasən Böyük Britaniyanın Avropa İttifaqından çıxması məsələsinə də toxunulmuşdur. Sənəddə qeyd edilmişdir ki, G20 ölkələri Böyük Britaniyada keçirilmiş referendumun nəticələrinin potensial nəticələrinə cavab olaraq aktiv iş görmək barədə razılığa gəlmişlər.

BVF-nin rəhbəri Kristin Laqard Böyük Britaniyanın və ya uğursuz dövlət çevrilişi cəhdindən sonra fövqəladə vəziyyət elan edilmiş Türkiyənin adlarını çəkmədən əlavə etmişdir ki, dünya iqtisadiyyatının inkişafını siyasi hadisələr təhlükə altına salır.

# «Apple» şirkətinin vergi sxemi dələduzluq kimi qiymətləndirilir



2001-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüş Cozef Stiqlits «Apple» korporasiyasının tətbiq etdiyi vergi sxemini kəskin tənqid edərək, bunu dələduzluq adlandırmışdır. Qeyd edək ki, bu şirkət öz gəlirlərinin əsas hissəsini ABŞ-la müqayisədə vergi dərəcələrinin təxminən 2,8 dəfə az olduğu İrlandiyada bəyan edir.

Cozef Stiqlits müsahibəsində bildirmişdir ki, «Apple» korporasiyasının tətbiq etdiyi aktual vergi sxemi dələduzluqdan başqa bir şey deyildir. Onun sözlərinə görə, şirkət gəlirlərinin əksəriyyətini vergi dərəcələrinin əhəmiyyətli şəkildə aşağı olduğu İrlandiyada bəyan etdiyi halda, həmin ölkənin bazarlarında «Apple» brendi ilə satılan malların sayı ABŞ kimi nəhəng istehlakçı bazarları ilə müqayisədə son dərəcə azdır. Beləliklə, gəlirləri nominal olaraq İrlandiyada qeydiyyata alındığına görə, «Apple» şirkətindən ABŞ-ın dövlət büdcəsinə lazım olduğu məbləğdə vəsait daxil olmur. Cozef Stiqlits qeyd etmişdir ki, analoji olaraq dövriyyəsi «General Motors» şirkətinin yaxşı vaxtlarındakından artıq olan «Apple» korporasiyası cəmi yüz nəfər rəsmi işçisinin olduğu bir ölkədə külli miqdarda gəlir əldə edə bilməz.

# Pekində otel qiymətlərin bahalığına görə cərimələndi

Çinin paytaxtının ən məşhur lüks otellərindən olan «Ritz-Carlton» öz xidmətlərinin qiymətlərini süni şəkildə qaldırdığına görə 2 milyon yuan (təxminən 300 min dollar) məbləğində cərimə olunmuşdur.

Ölkənin inkişaf və islahat dövlət komitəsinin şərhinə görə, otelin administrasiyası ƏDV-ni əsas götürərək ictimai iaşənin və ərzaq məhsullarının qiymətini artırmışdır. Əslində isə mehmanxana su, elektrik və sabit aktivlərin alğı-satqısına aid vergi tutulmalarından, eləcə də təsərrüfat fəaliyyətinin vergidən azad edilməsindən sui-istifadə etmişdir.

Çində vergi sistemində dəyişikliklər mayın 1-dən qüvvəyə minmişdir. İstehlak xidmətləri sferasına aid olan təsərrüfat fəaliyyəti üçün vergi ƏDV ilə əvəz olunmuşdur və cəmi 6 faiz təşkil edir.

# Portuqaliya və İspaniyanın büdcə kəsiri narahatlıq doğurur

Avropa Komissiyası Avropa İttifaqı Şurasına büdcə kəsirinin azaldılması üçün yetərli qədər səy göstərmədiklərinə görə, Portuqaliyanı və İspaniyanı cərimələməməyi tövsiyə etmişdir. Komissiyanın rəsmi nümayəndəsi bəyan etmişdir ki, hər iki ölkə cərimələrin azaldılması üçün ərizə ilə müraciət etmişdir. Qeyd olunmuşdur ki, hər iki hal üzrə cəzanı yumşaltmağa imkan verən şərtlər nəzərə alınmışdır.

Qərar qəbul edilərkən Avropa komissarları «Portuqaliyanın və İspaniyanın iqtisadi inkişaf perspektivlərini və onların ümumavropa sabitlik paktının şərtlərinə əməl etmək öhdəliklərini» diqqətə çatdırmışlar.

Bundan əvvəl avrozona ölkələrinin maliyyə nazirləri büdcə kəsirinin azaldılması üçün zəruri olan səyləri göstərmədiklərini səbəb gətirərək, Madridə və Lissabona qarşı sanksiya tətbiq olunmasını dəstəkləmişdilər. Həmin qərar cərimə qoyulmasının avtomatik prosedurunun tətbiqini nəzərdə tuturdu. Bu cərimənin məbləği isə ÜDM-in 0,2 faizi qədər və ya sırf rəmzi - «sıfır» ola bilərdi. Bununla bağlı İspaniya və Portuqaliya hökumətlərinin qərar qəbul edilən andan 10 gün müddətinə məbləğin azaldılması barədə ərizə vermək hüququ vardı.

Aİ-nin mövcud iqtisadi sabitlik və artım paktı dövlət büdcəsi kəsirinin ÜDM-in üç faizindən, dövlət borcunun isə ÜDM-in 60 faizindən artıq olmamasını nəzərdə tutur. Bu hədd aşıldıqda isə Aİ həmin ölkəyə büdcə kəsirini azaltmaq üçün müddət verə bilər.



krossvord

**Yuxarıdan aşağı:** 1.Müəyyən edilmiş ölçü vahidinin dəqiq nümunəsi; 2.Heyvan növü; 3.İngilis pop-rok müğənnisi, bəstəkar və pianoçusunun adı; 4.Respublikamızda rayon; 5.Öz məqsədinə çatmaq üçün başqa insanları manipulyasiya etmək üsulu, insanlar arasında münaqişə, ziddiyyət; 6.Dini icmanın üzvü, rahib; 7.Macarıstanın pul vahidi; 13.Azərbaycanla qonşu dövlət; 15.Argentinada şəhər; 16.İnsanın bədənində olan sümüklərin məcmusu; 17.Mühasibatda aktiv və passiv hesabların qalıqlarını göstərən və hər hansı bir təsərrüfat və ya müəssisənin müəyyən dövr ərzindəki maliyyə vəziyyətini əks etdirən ümumi cədvəl; 18.Kürdəmir rayonunda qəsəbə; 20.Musiqili səhnə sənətinin bir növü; 21.Kisəli ayılar fəsiləsinin kisəli ayı cinsinə aid heyvan növü. **Soldan sağa:** 1.Fərdin öz nəzər nöqtəsindən başqa hər hansı digər fikri qəbul etməməsi; 8.Təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil, mühasibat uçotu aparan şəxs; 9.Musiqi termini. Zil kişi səsi; 10.Alkanlar sinfindən doymuş karbohidrogen; 11.İlisu sultanı; 12.«Babək» filmində (1979) Babək əl-Xürrəmi obrazını ifa edən aktyorun adı; 14.Respublikamızda ictimai-siyasi qəzet; 19.Tanrının mahiyyətini dərk etməyə və dünyadakı məxluqların, o cümlədən insanın var olmasının səbəbini anlamağa çalışan yəhudiliyə məxsus mistik ənənə, təlim; 21.Hindistanda və Şərqin bəzi ölkələrində ata-baba peşələri və hüquqi vəziyyətləri cəhətindən bir-biri ilə bağlı olan qapalı ictimai qrup, təbəqə; 22.Xaşxaşkimilər fəsiləsinə aid bitki cinsi. Qadın adı. Azərbaycan klassik ədəbiyyatında ayrılıq əzabı çəkməyin rəmzi hesab edilir; 23.Oğuz tayfalarından birinin adı; 24.Qədim Misir mifologiyasına görə müdriklik və yazı tanrısı; 25.Xüsusi müalicə-profilaktik tibb müəssisəsi.



*«Babək» filmindən epizod (1979)*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Aynurə; 2.Antanta; 3.Qavot; 4.Renons; 5.İudaizm; 6.Manna; 7.Sərdar; 13.Kina; 15.Qanimed; 16.Karuzo *(Enrike)*; 17.Yevlax; 18.Ksenon; 20.Duala; 21.Mirzə *(Babayev)*. **Soldan sağa:** 1.Avanqardizm; 8.Natəvan; 9.Dinar; 10.Renat; 11.Niiqata; 12.Bankə; 14.Amiqo; 19.Andante; 21.Minos; 22.Ulaq; 23.Xloramin; 24.Oka; 25.Fəxrəddin *(Manafov)*.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 10000

## idman

# XXXI Yay Olimpiya Oyunlarında ilk medalımız

Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında Azərbaycan yığma komandası ilk medalını qazanıb. Olimpiadanın cüdo yarışında ölkəmizi təmsil edən Rüstəm Orucov (73 kq) yalnız finalda məğlub olub.



Olimpiadada mübarizəyə 1/16 final mərhələsindən başlayan cüdoçumuz bu mərhələdə Qazaxıstan təmsilçisi Didar Hamzanı məğlub edib. R.Orucov səkkizdəbir finalda Jake Bensted (Avstraliya) üzərində ipponla qələbə qazanıb. Azərbaycan idmançısı dörddəbir finalda «London-2012» Olimpiya Oyunlarının gümüş mükafatçısı, Macarıstan təmsilçisi Miklos Unqvarini məğlub edib. Yarımfinalda Saqi Muki (İsrail) ilə qarşılaşan R.Orucov görüşü qələbə ilə başa vuraraq finala yüksəlib. Qələbəyə gedən yoldakı sonuncu sınağında yaponiyalı Şohei Onoya uduzan cüdoçumuz XXXI Yay Olimpiya Oyunlarını gümüş medalla başa vurub.

İyirmi beş yaşlı Rüstəm Orucov bu il Kazanda keçirilən Avropa çempionatının şəxsi yarışlarında birinci yeri tutub. O, həmin çempionatda komanda yarışında bürünc mükafatla kifayətlənməli olub. İdmançımız 2011-ci ildə Dünya Kubokunun bürünc mükafatçısı və Avropa Kubokunda ikinci yerin sahibi olub. Cüdoçumuz həmin il Azərbaycanı Şenzen şəhərində keçirilən beynəlxalq yay universiadasında, 2012-ci ildə isə London Yay Olimpiya Oyunlarında təmsil edib. 2012-ci ildə Bakıdakı Qran-pridə qızıl, 2014-cü ildə Türkiyənin Samsun şəhərindəki Qran-pri turnirində gümüş medal qazanan R.Orucov ötən il Tbilisidə keçirilən Qran-pridə birinci yeri tutub. İdmançımız bu il Bakıda keçirilən «Böyük dəbilqə» beynəlxalq turnirində bürünc, Almaniyada təşkil olunan Qran-pri turnirində isə gümüş medal qazanıb.

R.Orucov Beynəlxalq Cüdo Federasiyasının reytinq siyahısında ikinci yerdə qərarlaşıb. O, Olimpiya Oyunlarına lisenziyanı Beynəlxalq Cüdo Federasiyasının reytinq cədvəlinə əsasən qazanıb.

# IV İslam Həmrəylik Oyunlarının təqdimatı olub

**Rio-de-Janeyronun «Windzor Barra» otelində 2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəylik Oyunlarının təqdimat mərasimi keçirilib.**



Gənclər və İdman Nazirliyinin mətbuat katibi Səmayə Məmmədova bildirib ki, 60-dan çox qonağın iştirak etdiyi mərasimdə gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycanın Braziliyadakı səfiri Elnur Sultanov, IV İslam Həmrəylik Oyunları Əməliyyat Komitəsinin direktoru Elçin Səfərov, Rio Olimpiadasında Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Mədətov, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev, rəsmilər, eyni zamanda, İslam Həmrəylik İdman Federasiyasının birinci vitse-prezidenti, Əqləndirmə Komissiyasının sədri, polkovnik Hamad Kalkaba Malboum, Nigerin Baş naziri Ada Salissau, Qvineya-Bissaunun Baş naziri Bakiro Dja, Malaziya, İndoneziya, Qvineya-Bissau, Çad, Qambiya, Fələstin, Suriya və digər İslam ölkələrinin Milli Olimpiya Komitələrinin prezidentləri, baş katibləri, idman məsələləri üzrə məsul şəxsləri iştirak ediblər.

Tədbirdə çıxış edən Azad Rəhimov ölkəmizin bir sıra mötəbər idman yarışlarına yüksək səviyyədə ev sahibliyi etdiyini bildirib. Bu baxımdan birinci Avropa Oyunlarını, Formula-1 Avropa Qran-prisini və digər mötəbər yarışları xüsusi qeyd edən nazir deyib: «Daim dünyaya tolerantlıq nümayiş edən Azərbaycanın IV İslam Həmrəylik Oyunlarını keçirməkdə məqsədi İslam dininin gözəlliyini, insanlar arasında dostluq, mehribanlıq münasibətlərini təbliğ etməsini dünyaya göstərməkdir. Gələn il 12 yarış günü ərzində beş mindən çox idmançı idmanın 20 növü üzrə mübarizə aparacaq. Daim hər bir yarışa yüksək səviyyədə ev sahibliyi edən ölkəmiz, IV İslam Həmrəylik Oyunları ilə Azərbaycan simasında müsəlman ölkəsinin gözəlliyini, tolerantlığını dünyaya nümayiş etdirəcək».

Sonra IV İslam Həmrəylik Oyunları haqda hazırlanmış film nümayiş etdirilib. Filmdə Oyunlara hazırlıq prosesi, idman obyektləri haqqında məlumat və digər mühüm məqamlar əksini tapıb.

Filmin nümayişindən sonra nazir Azad Rəhimov IV İslam Həmrəylik Oyunlarına hazırlıq prosesi, qeydiyyat, idmançıların qalacaqları məkanlar, yarışların keçiriləcəyi idman obyektləri və digər məsələlərlə bağlı sualları cavablandırıb.

Tədbirdə bu mötəbər yarışla bağlı geniş fikir mübadiləsi aparılıb, qonaqlara xatirə hədiyyələri təqdim olunub.

## mozaika

dünya

# İlk üzən sualtı tunel



Avtomobillərin rahat idarə olunması üçün vacib sayılan əlverişli yol infrastrukturunun yaradılması bəzi hallarda mümkün olmur. Bu amil əsasən ərazinin landşaft xüsusiyyətlərindən asılıdır. Norveçdə müvafiq problemin həlli üçün dünyada ilk dəfə üzən sualtı nəqliyyat tunelinin inşası planlaşdırılır.

«Sognefjord» körfəzi ərazisində həyata keçiriləcək layihənin təşəbbüskarları suyun 30 metr dərinliyində yerləşdirilmiş üzən tunellər vasitəsilə avtomobillərin hər iki istiqamətdə uzun məsafələri daha rahat qət etməsinə imkan yaranacağını bildiriblər. 2035-ci ilədək yekunlaşdırılması nəzərdə tutulan layihənin reallaşması üçün 25 milyard ABŞ dolları həcmində vəsait ayrılıb.

Layihə uğurlu nəticə verərsə, Norveçin digər bölgələrində də oxşar tunellərin tikintisi həyata keçirilə bilər. Üzən tunellər vasitəsilə ölkənin cənub-şimal istiqamətində avtomobillərin hərəkət zamanının yarıbayarı qısaldılması mümkündür.

sağlam həyat tarzi

# Cavanlaşdırma sınaqları aparılacaq

ABŞ-ın Monterey şəhərindəki (Kaliforniya ştatı) «Ambrosia» firmasının mütəxəssisləri qan plazmasının köməyi ilə insanların cavanlaşdırılmasına dair ilkin sınaqlara hazırlaşırlar. Siçanlar üzərində parabioz tədqiqatlarının nəticələrinə əsaslanan bu metod qoca və cavan heyvanların qan-damar sisteminin birləşdirilməsini nəzərdə tutur.

Şirkətin təsisçisi Cessi Karmazin yaşı 35-dən başlayan könüllülərə köçürülən gənclərə məxsus plazmanın cavanlaşdırıcı təsirini tədqiq etməyi planlaşdırır. Eksperimentdə ümumən 600 nəfər iştirak edəcək və bunun üçün 8 min dollar ödəyəcək. Donorların yaşı 25-dən çox olmamalıdır. Hər bir resipiyentə iki gün ərzində 1,5 litr plazma köçürüləcək. Prosedurdan əvvəl və ondan bir ay sonra könüllülərin qanı biokimyəvi dəyişikliklər sarıdan yoxlanılacaq. Təcrübə iştirakçıları qan bankından verilən plazma, laboratoriya analizləri, sığorta və bioetika komissiyasının təsdiqi xərclərini ödəməli olacaqlar.

Artıq bəzi ekspertlər eksperimenti tənqid ediblər. Onların sözlərinə görə, insanlar üzərində sınaqların uğurlu olacağına kliniki sübutlar yoxdur. Cavan siçanların qanının qoca siçanların orqanizminə müsbət təsirinin öyrənildiyi 2014-cü il tədqiqatının müəllifi Toni Viss-Koreyin fikrincə, belə tədqiqatlar insanların etibarından sui-istifadədir və cəmiyyətdə lazımsız narahatlıq yaradır.

Qeyd edək ki, T.Viss-Korey Stenforddakı «Alkahest» şirkətinin təsisçisidir. O, gənclərə məxsus qan plazmasının Alsheymer xəstəsi olan 18 könüllüyə təsirinə dair bir sıra tədqiqatlar aparıb. Sınağın məqsədi xəstəliyin əlamətlərinin azaldılmasında metodun təhlükəsizliyini və səmərəliliyini dəyərləndirmək olub. Şirkət iştirakçıların xərclərini özü ödəyir.



texnologiya

# Sənaye robotu virtual reallığı hissolunan edib

Kvins Universitetinin tədqiqatçıları sənaye robotunu virtual reallıq obyektləri ilə fiziki kontaktın imitasiyası üçün istifadəyə uyğunlaşdırıblar. Aparat platforması qismində mütəxəssislər «Baxter» robotundan və «HTC Vive» virtual reallıq eynəyindən istifadə ediblər. Sistem kontrollerlərin virtual reallıqda yerdəyişməsini izləyir və lazımi obyektə yaxınlaşan zaman robot kontroller qarşısında kontakt yerini qoyur. İstifadəçi virtual reallıq obyekti ilə fiziki əlaqəni hiss etməyə başlayır.



İstifadəçi xüsusi virtual reallıq mühitində taxta yeşikləri bir neçə dəfə yerindən tərpədir. Bununla yanaşı, bəzi funksiyaları dəyişdirmək olar. Məsələn, istifadəçi virtual obyektlərin kütləsini dəyişdikdən sonra robot yeni sazlamalara uyğun daha ağır yeşiyi imitasiya etməyə başlayır.

kainat

# Kiçik asteroidlərin məhv edilməsi yolları araşdırılır

Elm adamları asteroidlərin əvvəlki kimi dünya üçün təhlükə törətdiyini bildirib və onların məhv edilməsinin yollarını araşdırıblar. Hazırda kosmik qalaktikada, Yer kürəsinin ətrafında çoxlu böyük və kiçikhəcmli asteroid var. Onların hər biri planetimiz üçün müəyyən təhlükə yaradır. Kiçikhəcmli asteroidlərin Yer kürəsi üçün daha çox təhlükəli olduğu bildirilir. Belə ki, həcmcə böyük asteroidləri kiçiklərə nisbətən müəyyən edib istiqamətini dəyişmək mümkündür. Kiçik obyektlərə aid olan qara asteroidlərin təxmini ölçüsü 300 metrdir. Alimlər belə obyektlərin görülməsinin inanılmaz çətin olduğunu bildiriblər. Onların müəyyən olunması şansı 23 faiz və daha az təşkil edir. Bununla əlaqədar ABŞ alimləri «Ölüm Ulduzu»nun yaradılmasını məsləhət görürlər. O, təhlükəli asteroidləri əridərək məhv edəcək. Bu ulduzun başqa kosmik testlərdə də faydalı olacağı bildirilir.

camiyyat

# Fırıldaq proqram təminatı

«Cisco» şirkəti 2016-cı ilin birinci yarısı üçün kibertəhlükəsizlik üzrə hesabat dərc edib. Sənədə görə, kiberhücumlarda cinayətkarlar daha çox zərərli fırıldaqçılıq proqram təminatından istifadə ediblər. Bu ilin birinci rübündə həm müəssisələr, həm də ayrı-ayrı istifadəçilərə qarşı yönəlmiş fırıldaqçılıq kampaniyaları daha aktiv və güclü olub.

Fırıldaqçılıq hücumlarında ən çox yayılmış «Adobe Flash» platformasında boşluqlardan istifadə üçün «exploite» kompüter proqram dəstidir. İnsidentlərin 80 faizində «Adobe Flash»də boşluqlardan uğurlu istifadə üçün «Nuclear» «exploite» proqramından istifadə olunub. Cinayətkarlar, həmçinin, fırıldaqçılıq kampaniyalarında «JBoss» əlavələr serverində boşluqlardan yeni vektor kimi yararlanıblar.

Hesabata görə, 2015-ci ilin sentyabrından 2016-cı ilin martınadək tədqiqatçılar zərərli proqram aktivliyi ilə əlaqədar «HTTPS» trafikdə beşqat artım qeydə alıblar. Artım, əsasən, zərərli reklam bildirişlərinin yoluxdurulması və reklam proqram təminatının yayılmasında müşahidə edilib. Şifrlənmiş «HTTPS» bağlantılarından istifadə edən cinayətkarlar öz aktivliklərini gizlətməyə və hücumların həyata keçirilməsi üçün kifayət qədər vaxt qazanmağa çalışırlar.

Bildirilir ki, istifadəçilər yenilənmələri vaxtında quraşdırmamaqda davam edirlər və bu da cinayətkarlara «exploite» proqramlarından məlum boşluqlar üçün istifadəyə imkan verir. Köhnəlmiş proqram təminatından istifadə səbəbindən qurğuların çoxu müxtəlif növ hücumlar üçün boşluqlar yaradır. Tədqiqatçılar nümunə kimi boşluqların müddətini müəyyənləşdirmək üçün müxtəlif infrastrukturlarda istifadə edilən sadə «Cisco» qurğular dəstini götürüblər. Məlum olub ki, qurğuların 23 faizində 2011-ci ilə aid boşluqlar, 16 faizində isə ilk dəfə 2009-cu ildə aşkarlanan səhvlər var. Cinayətkarlar şəbəkə trafikinin şifrlənməsi üçün istifadə olunan «TLS» protokolundan aktiv yararlanmağa başlayıblar. Bu, informasiya texnologiyaları mütəxəssisləri arasında narahatlıq doğurur, çünki paketlərin dərindən yoxlanılması effektsiz alətə çevrilir.

2015-ci ilin dekabrından 2016-cı ilin aprelinədək «Cisco» təhlükələrin orta aşkarlanma vaxtını 13 saatadək azaltmağa nail olub. Lakin əksər şirkətlərdə nəzərdə tutulan norma 100-200 gün təşkil edir.

## Müdriklər deyib ki...

***«Ölümdən deyil, mənasız həyatdan qorxmaq lazımdır».***

***Bertold Brext (1898-1956)***

